

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Yeni Azərbaycan Partiyası 50 min seçici imzasının olduğu imza vərəqələrini MSK-ya təqdim edib

7

SƏS

№ 238 (6921)

27 dekabr 2023-cü il.
Qiymәti 60 qәpik

# Prezident İlham Əliyev Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edib



2

# Kremldən Paşinyana MDB "şapalağı"



8

## Uşağı kitab oxumağa necə alışdırmaq olar?



11

## Müstəqillik tariximizin ən böyük büdcəsi təsdiqləndi



12

## Əli Kərimli boykot pərdəsi altında qorxaqlığını gizlətməyə çalışır



14

## Siyasi məğlub, yaxud da "TOPAL ÖRDƏK"




9

## Aqrar sığorta: Əkdiyini biçmək üçün təminat



15

# Prezident İlham Əliyev Sankt-Peterburqda MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edib

**Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmək üçün dekabrın 26-da Sankt-Peterburq şəhərinə işgüzar səfərə gəlib. Sankt-Peterburq şəhərinin "Pulkovo-1" hava limanında dövlətimizin başçısını Sankt-Peterburq şəhərinin qubernatoru Aleksandr Beqlov və digər rəsmi şəxslər qarşılayıblar.**

Dekabrın 26-da Rusiyanın Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafı bir daha məmnunluqla qeyd edildi, əməkdaşlığımızın daha da genişləndirilməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi. Yüksək səviyyəli görüşlərin və təmasların əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi vurğulandı. Dövlət başçıları əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini ifadə edərək gələcək təmaslar və əməkdaşlığımızın perspektivləri barədə fikir mübadiləsi apardılar.









Prezident İlham Əliyev və MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edən digər ölkələrin rəhbərləri dekabrın 26-da Sankt-Peterburqda "Yekaterina sarayı" ("Ekaterininskiy dvoreü") ilə tanış oldular. XVIII əsr memarlığının şah əsəri sayılan "Yekaterina sarayı"nın inşası 1744-cü ildən 1756-cı illəri əhatə edib. 1918-ci ildə "Yekaterina saray-park ansamblı" muzeyə çevrilib.

İkinci Dünya müharibəsi illərində faşist istilası zamanı bu tarixi abidə dağıdılaraq talan edilib, muzey kolleksiyasının əhəmiyyətli hissəsi itirilib, dağıntılar və talan nəticəsində abidəyə ciddi ziyan dəyib. "Yekaterina sarayı"nın bərpası 1957-ci ildən bəri davam edir. Dünən Sankt-Peterburqda MDB Dövlət Başçılarının qeyri-rəsmi görüşü keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib. Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib.

# Milli Məclisin payız sessiyasında növbəti iclası olub

Dünən Milli Məclisin payız sessiyasında növbəti iclası keçirilib. İclasda Milli Məclisin sədri Sahibə Qafarova əvvəlcə cari məsələlərlə bağlı müzakirələrin aparılacağını bildirib. Müzakirələrdə komitə sədrləri Zahid Oruc, Fazil Mustafa, deputatlar Əli Məsimli, Etibar Əliyev, Vüqar Bayramov, Tural Gəncəliyev, Hikmət Məmmədov, Sahib Alıyev, Elşad Mirbəşir oğlu, Fatma Yıldırım, Emin Hacıyev, Bəhruz Məhərrəmov, Nizami Səfərov, Razi Nurullayev, Sədaqət Vəliyeva, Elman Nəsirov, Sabir Rüstəmxanlı, Tahir Kərimli, İsa Həbibbəyli, Aqil Abbas çıxış ediblər. Deputatlar 2023-cü il dekabrın 25-də Prezident İlham Əliyevin Sərəncamı ilə 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini yüksək qiymətləndiriblər. Bu baxımdan onlar BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un gələn il Azərbaycanda keçirilməsi qərarının beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə böyük etimadın bariz nümunəsi olduğunu bildiriblər. Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da möhkəmləndiyini vurğulayan deputatlar aparılan uğurlu xarici siyasət sayəsində ölkəmizin beynəlxalq nüfuzunun gündən-günə artdığını qeyd ediblər.

Çıxışlarda COP29-un ölkəmizdə keçirilməsi kontekstində növbəti ildə ətraf mühitin qorunması istiqamətində tədbirlərin intensivləşməsinin, o cümlədən bununla bağlı qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyindən, yaşıl enerji zonasının genişləndirilməsinin əhəmiyyətindən söhbət açılıb. Azərbaycanın öz yaşıl enerji potensialından istifadə etməklə regionun enerji təhlükəsizliyinə daha çox töhfə verəcəyi bildirilib. Ölkəmizin iqlim dəyişikliklərinin fəsadlarına qarşı mübarizədə rolundan bəhs edilib. COP29-un yaşıl enerji siyasətimizin dünya ictimaiyyətinə təqdimatı baxımından önəmli platforma olacağı diqqətə çatdırılıb.



Cari məsələlərin müzakirəsi zamanı digər aktual məsələlər barədə də fikir bildirilib. Sonra Milli Məclisin sədri Sahibə Qafarova bugünkü iclasın gündəliyinə 9 məsələnin daxil edildiyini diqqətə çatdırıb. O, gündəlikdəki ilk 7 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib. Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Arbitraj haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, layihənin mətnində dəyişiklik edilmədən müzakirəyə təqdim olunduğunu deyib. Qanun arbitrajın həyata keçirilməsi ilə bağlı yaranan ictimai münasibətləri tənzimləyir, arbitraj sazişinə dair tələbləri, Azərbaycan Respublikasında arbitraj məhkəmələrinin və daimi arbitraj təşkilatlarının təşkili, fəaliyyət göstərməsi, arbitraj icraatının aparılması, arbitraj qərarlarının tanınması və icrası qaydalarını müəyyən edir. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sahibə Qafarova növbəti iki məsələnin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu bildirib. O, bu sənədlərin Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) və "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri olduğunu söyləyib. Bu qanun layihələri barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verib. O, bu sənədlərin "Arbitraj haqqında" qanun layihəsi ilə bağlı olduğunu deyib. Deputat, həmçinin ikinci oxunuş zamanı qaldırılan məsələyə müzakirələr zamanı və işçi qaydada aydınlıq gətirildiyini bildirib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Sonra parlament sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikası qanunlarının icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edib. Bildirilib ki, layihədə adları çəkilən qanunların icrası ilə bağlı bir sıra qanunlarda uyğunlaşdırma xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili, İctimai birliklər və dini qurumlar komitəsinin sədr müavini Sahib Alıyev, Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev məsələ ilə əlaqədar bu komitələrin müsbət rəy verdiklərini söyləyiblər. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

İclasda İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. O, nəzərə çatdırıb ki, sənəd "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə ilk məhkəmə iddiası zamanı dövlət rüsumunun azaldılmasını özündə ehtiva edir. Qanun layihəsi üçüncü oxunuşda səsə qoyularaq qəbul olunub.

Milli Məclisin sədri Sahibə Qafarova növbəti məsələnin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib və sənədin bir oxunuşda qəbul ediləcəyini qeyd edib. Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qanun layihəsi barədə məlumat verib. Diqqətə çatdırılıb ki, 2015-ci ildən etibarən bu Qanunun 2-ci maddəsində nəzərdə tutulan yoxlamalar istisna olmaqla, sahibkarlıq sahəsində yoxlamaların keçirilməsinə məhdudiyyət tətbiq olunur. Qanun layihəsində yoxlamaların dayandırılması müddətinin daha bir il müddətinə - 2025-ci il yanvarın 1-dək uzadılması nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova bildirib ki, sonuncu məsələ Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin Bəyanatı haqqındadır. O, qeyd edib ki, Milli Məclisin 23 deputatı Qərbi Azərbaycan İcmasının nümayəndələridir. Sahibə Qafarova nəzərə çatdırıb ki, onlar Bəyanat hazırlayıblar və Bəyanatı Milli Məclisdə səsləndirmək xahişi ilə parlamentin sədri kimi ona müraciət ediblər. Sədr Bəyanatı səsləndirmək üçün Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, deputat Əziz Ələkbərova söz verib.Daha sonra Əziz Ələkbərov İcmanın Bəyanatını oxuyub.

İclasda Azərbaycan Respublikasının Milli Məclisində təmsil olunan Qərbi Azərbaycan İcması nümayəndələrinin Bəyanatı nəzərə alınıb.

# Bəşəriyyətin Heydər Əliyev dühası

## İLHAM ƏLİYEV: "Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir"

***Hər bir tarixi şəxsiyyətin xidmətləri mənsub olduğu xalqın yaddaşında əbədi qalır, ancaq bununla məhdudlaşmır. Çünki elə dühalar var ki, onlar həm də bəşəri əhəmiyyətli işlər görürlər. Bunu böyük tarixi şəxsiyyətlər dəfələrlə qeyd etmişlər. Böyük Plutarx yazırdı: "Azadlıq bərabərdir xalq, üstəgəl şəxsiyyət. Şəxsiyyətsiz azadlıq xəyaldır". Bismark isə deyirdi: "Şəxsiyyəti olmayan xalqın azadlıq uğrunda mübarizəsi ağlasığmazdır. Xalq öncə şəxsiyyətin ətrafında birləşir, yalnız bundan sonra ideyalar haqqında düşünməyə başlayır".***

Böyük Nəsirəddin Tusi yazırdı ki, "hökmranlıq o adama yaraşır ki, cəmiyyət xəstələndikdə onu müalicə edə bilsin. Çünki hökmdar ölkənin həkimi yerində olmalıdır". Sokrat isə qeyd edirdi ki, "dövlətə təcrübəli, səriştəli adamlar başçılıq etməlidirlər. Gəmini müəyyən biliyə, təcrübəyə və vərdişlərə malik olan adamlar idarə edə bildiyi kimi, dövləti də o qəbildən olan adamlar idarə etməlidirlər".

### PREZİDENT İLHAM ƏLİYEV: "Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir"

Azərbaycan Prezidenti İlham Əliyev bununla bağlı demişdir: "Heydər Əliyevin timsalında biz əyani şəkildə görürük ki, şəxsiyyətlərin tarixdəki rolu bəzi hallarda əvəzolunmaz olur. Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir". Bəli, dövlət başçımızın söylədiyi kimi "Heydər Əliyev şəxsiyyəti, Heydər Əliyev dühası bugünkü Azərbaycanın uğurlu inkişafının təməlində dayanan bir amildir". Məhz ulu öndər Heydər Əliyevin 1991-ci il sentyabrın 3-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi Azərbaycan xalqının taleyində böyük siyasi əhəmiyyətə malik olan tarixi hadisədir. Naxçıvandan başlanan xilaskarlıq yolu Azərbaycanın şanlı tarixində yeni səhifə açmaqla müstəqil ölkəmizin işıqlı gələcəyini təmin etmişdir. Azərbaycanda müstəqil dövlət quruculuğu ağrılı, əzablı yollar keçib. Bu yolun ən məsul məqamlarında ictimai-siyasi mühitin xüsusi həyəcanla vuran nəbzi xalqın uzun illər həsrətində olduğu müstəqilliyini itirmək nigarançılığı ilə bağlı olmuşdur.

### NAXÇIVANDAN BAŞLANAN TARİXİ MİSSİYA

31 il öncə 1991-ci il sentyabrın 3-də keçirilən və tariximizdə özünəməxsus yer tutan fövqəladə sessiyasında Ulu Öndər Heydər Əliyevin Ali Məclisin Sədri seçilməsi də tarixdə liderlərin rolunun əvəzolunmazlığını təsdiq edən mühüm hadisələrdən biridir. 3 sentyabr 1991-ci ildə keçirilən Naxçıvan MR Ali Məclisinin sessiyasının nəticəsini meydanlara toplaşan insanlar səbirsizliklə gözləyirdilər. O günlərdə yaşadığı həyəcanını sonradan Rusiyanın jurnalistləri ilə görüşündə xatırlayan Ulu Öndər sonralar həmin sessiya haqqında belə deyirdi: "Sədr seçmək məsələsi gündəlikdə dururdu... Sessiya iki və üç gün davam etdi. Bir nəticəyə gələ bilmədilər. Evə gəlib məni oraya dəvət etdilər. Üç-dörd dəfə boyun qaçırdım. Özümün razılığı olmadan məni Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Sədri seçdilər" söyləyən Ulu Öndərin bu qərarı Azərbaycanın taleyinin dönüş nöqtəsi oldu. Özünəməxsusluğu ilə seçilən həmin tarixi günün əhəmiyyətini "Çox böyük mənəvi əziyyət içərisindəyəm ki, mənim razılığım olmadan məni sədr seçdilər. Ancaq bu zamanın, dəqiqələrin, bu saatın hökmünü nəzərə almaya bilməzdim" sözləri ilə bildirən, yalnız xalqı üçün yaşayan, insanların xoşbəxt gələcəyi naminə çalışan ulu öndər Heydər Əliyev vurğulayırdı ki, Azərbaycanın belə ağır vəziyyətində, çətin günündə naxçıvanlıların tələbindən imtina etmək, geri çəkilmək, insanlara dəstək olmamaq onların ümidlərini qırmaq demək idi: "Ancaq eyni zamanda mən öz taleyimi xalqa tapşırmışam və xalqın iradəsini yəqin ki , indi, bu müddətdə, bu çətin dövrdə yerinə yetirməliyəm."

"Onun Naxçıvan MR Ali Məclisinə sədr seçildiyi gün tək muxtar respublikanın deyil, bütünlükdə Azərbaycan xalqının xilas günü kimi tarixə yazıldı" söyləyən Prezident İlham Əliyevin sözlərini tarix və zaman da təsdiqlədi. 1990-cı ildə imperiyanın törətdiyi 20 Yanvar hadisələrini pisləyən Ulu Öndərin Azərbaycanın Mosvadakı nümayəndəliyindəki çıxışını vətəndaşlıq borcu, kommunst rejiminə qarşı etiraz, siyasi qətiyyət adlandıran Prezident İlham Əliyev müdrik siyasətçi Heydər Əliyevin Naxçıvandakı fəaliyyətini müstəqilliyə gedən yolun başlanğıcı adlandırır: "Naxçıvanda Azərbaycan Xalq Cümhuriyyətinin bayrağını dövlət bayrağı elan etmişdir və atılmış digər addımlar ona xalqın məhəbbətini daha da artırmışdır. Bununla bərabər, o vaxt Azərbaycanda hakimiyyətdə olan AXC-Müsavat cütlüyü xalqın inamını tamamilə itirmişdi. Onların antimilli siyasəti xalqda böyük hiddət doğurdu. Bacarıqsızlıq, qeyri-peşəkarlıq nəticəsində ölkə demək olar ki, idarəolunmaz vəziyyətə düşmüşdü. Ölkəmizi xaos, anarxiya bürümüşdü, qeyri-qanuni silahlı birləşmələr küçələrdə əli silahlı gəzirdilər, insanları incidirdilər. O illərdə ölkəmizi kütləvi rüşvətxorluq bürümüşdü. Torpaqlarımızın işğal altına düşməsi, iqtisadi böhran, sənaye böhranı, hərbi böhran demək olar ki, ölkəmizin gələcək müstəqil həyatına böyük təhlükə yaradırdı. Belə olan halda əlbəttə ki, xalq öz ümidini Heydər Əliyevə bağlamışdı."

Azərbaycançılıq məfkurəsini siyasi fəaliyyətinin əsas amilləri kimi diqqətdə saxlayan ulu öndər Heydər Əliyevin Azərbaycana dönüşü



tarixi hadisə idi. Müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olan Heydər Əliyev siyasi dühası ilə respublikamızın müasir simasını müəyyənləşdirərək, xalqımızın taleyində silinməz izlər qoymaqla varlığımızın əbədi qarantı oldu. Ermənistan tərəfindən blokadaya alınan muxtar respublikaya rəhbərlik asan deyildi. Ağır, çətin zamanda xalqı ilə birlikdə olmaq üçün Vətəninə qayıdan Ulu Öndərin varlığından belə narahat olan qüvvələr hamının el ağsaqqalı, müdrik şəxsiyyət kimi sevdiyi ümummilli lider Heydər Əliyevə qarşı da xəyanətlər törətdilər. Amma milyonlar onu daxili və xarici dairələrin itaətində olan şər qüvvələrdən qorudu. Xilas yolu isə yenə xalqla birlikdə olmaq idi. Ulu öndər Ali Məclisin Sədri vəzifəsinin icrasına başlayandan cəmi 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Naxçıvan Muxtar Respublikası Dövlət Müdafiə Komitəsinin yaradılması haqqında qərar qəbul edib. Bu qərar Naxçıvanın müdafiəsinin gücləndirilməsi istiqamətində atılan ilk addım oldu.

### XİLASKAR MİSSİYALI QAYIDIŞ

Ulu öndərin ikinci dəfə siyasi hakimiyyətə gəlişi nəinki Azərbaycanı, bütöv bir xalqı məhv olmaq təhlükəsindən xilas etdi. Xalq ən ağır günlərini yaşadığı bir zamanda sevimli oğlunu, dahi şəxsiyyət Heydər Əliyevi ölkəni idarə etməyə çağırdı. Bu təkidli çağırışın arxasında sonsuz xalq etimadı, millətin məhəbbəti və inamı dayanırdı. Lakin onun birinci hakimiyyəti dövründəki abad Azərbaycandan heç nə qalmamışdı. Ümummilli Liderin 1993-cü il iyunun 15-də Azərbaycanda siyasi hakimiyyətə xilaskar missiyalı qayıdışı xalqın milli dövlətçiliyinə və sabahkı gününə inamını özünə qaytardı, ölkə həyatının bütün sahələrinə nüfuz etmiş böhran aradan qaldırıldı, Qarabağ cəbhəsindəki uğursuzluqların qarşısı alındı, ictimai-siyasi sabitlik, milli-mənəvi həmrəylik və vətəndaş sülhü təmin edildi, ən başlıcası isə itirilməkdə olan dövlət müstəqilliyi qorunub saxlanıldı. Yaxın keçmişimizdə baş verən hadisələrə qiymət verməyi bacaran hər bir insan dərk edir ki, Heydər Əliyev qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını almağa həyatını təhlükəyə atmaqla, ölümündən çəkinməyərək nail oldu. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Ümummilli Liderin həyata keçirdiyi təxirəsalınmaz tədbirlər nəticəsində ölkəmiz müstəqilliyini itirmək, parçalanmaq, vətəndaş müharibəsi təhlükəsindən xilas oldu. 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin imzalanması müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji mahiyyət kəsb edən möhtəşəm qələbəsi idi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi. Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan bu ali sənəd Azərbaycanda insan hüquq və azadlıqlarının qorunması və təmin olunmasında yeni mərhələ açdı. 1998-ci ildə şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm hökmü ləğv olundu. Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu. Hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ümummilli Liderin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələridir. Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə Dahi Şəxsiyyətin adı ilə bağlıdır. 1998-ci il oktyabrın 11-də Ulu Öndər yenidən yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu, Ümummilli Liderə olan sonsuz etimadı, məhəbbəti, inamı bir daha sübut edirdi. Heydər Əliyevin fəaliyyətinin 1993-2003-cü illəri bir ömrün qızıl salnaməsidir. Ulu Öndər həmin dövrdə Azərbaycanı yalnız parçalanmaqdan, dövlət çevrilişlərindən, özbaşınalıqlardan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqilliyi daha da möhkəmləndirilmiş Azərbaycanı bəxş etdi.

### İLHAM ƏLİYEV VƏ SİYASİ VARİSLİYİN TƏNTƏNƏSİ

Bəli, xalqın irəlidə - Ulu Öndərdən sonra taleyini etibar etmək istədiyi lider yalnız İlham Əliyev idi. Prezident İlham Əliyev müxtəlif dövlətlərin siyasilərinin çeşidli mülahizələrilə müşayiət olunan proseslərdə, tez-tez dəyişən olayların çevrəsində dünya şöhrətli atasının bütün fərdi və ideoloji qənaətlərini onunla birgə yaşayırdı. Ümummilli liderin ən layiqli varisi İlham Əliyev ona görə güclü idi ki, müstəqil Azərbaycan dövlətinə rəhbərlik estafetini qəbul edərək böyük siyasətə gəlişi Üummilli Lider Heydər Əliyevin siyasi, ictimai, əxlaqi məfkurəsi və mədəniyyəti üzərində formalaşmışdı. Belə bir tarixi şəraitdə Ümummilli Lider Heydər Əliyev 2003-cü ilin prezident seçkilərinin həlledici dövründə canından artıq sevdiyi xalqına müraciətlə bildirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev atasından əxz etdiyi nadir şəxsiyyətlərə məxsus bu keyfiyyətləri şərəflə daşıyır və böyük əzmlə dövlət idarəçiliyinə tətbiq edir, tarixin yeni tələblərinə uyğun olaraq təkmilləşdirib inkişaf etdirir. Ulu Öndər Heydər Əliyevin bütün sahələrdə başladığı işlər sahəsində gördüyü nəhəng layihələri respublikamızın Prezidenti cənab İlham Əliyev layiqincə davam etdirir. Məqsəd isə birdir - Azərbaycan xalqının daha xoşbəxt və firavan yaşamasını təmin edilməsi, ölkəmzin adının ən yüksək zirvələrdə çəkilməsi. Bizlər də hər bir vətəndaş kimi inanırıq ki, Azərbaycanı, onun xalqını uğurlu daha gələcək gözləyir. Azərbaycanın dahi oğlunun əməlləri, müqəddəs ideyaları və arzuları xalqımızın qəlbində əbədiyyən yaşayacaq, yaşadılacaqdır!

Beləliklə, Ulu Öndər Heydər Əliyevin istər Ali Məclisin Sədri, istərsə də Azərbaycan Respublikasının rəhbəri kimi fəaliyyət göstərdiyi illər ölkəmizdə müstəqil dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövrü kimi yadda qalıb və bu, Azərbaycanın xilası və inkişafı epoxasıdır.

***RƏFİQƏ KAMALQIZI***

# Tarixi hadisələrə şahidlik edən Qalib Azərbaycan

## Prezident İlham Əliyev: "Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı"

Zəfər qazanmış Azərbaycan tarixi hadisələrə şahidlik edir. Böyük Qayıdışı reallaşdıran tarixi günlər keçmiş köçkünləri öz yurd yerlərinə aparır. Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın "Qarabağ" və Bakının MOİK komandalarının qarşılaşması tariximizə yazılan bir hadisə kimi əbədiləşdi. Xalqımız yurd yerlərində tarixi hadisələrə şahidlik edirlər. Dövlətimizin başçısı oyundan əvvəl stadionda çıxış edərək bildirdiyi kimi, ilk dəfədir ki, işğaldan azad edilmiş ərazilərdə futbol matçı keçirilir:"Bu futbol matçının Xankəndidə keçirilməsinin çox böyük mənası var. Xankəndi qədim Azərbaycan diyarıdır. Bu kəndin təməli Qarabağ xanı tərəfindən qoyulmuşdur və ondan sonra Azərbaycan Respublikasının vəsaiti hesabına Azərbaycan memarları, inşaatçıları tərəfindən böyük şəhər yaradılmışdır. Əfsuslar olsun ki, 30 il ərzində bu şəhərdə separatçılar yuva salmışdılar. Bu şəhər separatizmin rəmzinə çevrilmişdi".











Qeyd edək ki, Xankəndi 1991-ci il dekabrın 26-da Ermənistan Silahlı Qüvvələri və Qarabağdakı erməni separatçıları tərəfindən işğal edilləndən sonra yaradılan qondarma Dağlıq Qarabağ Respublikasının paytaxtı idi. İnzibati cəhətdən Xankəndi şəhər ətrafında dairəsinə Xankəndi şəhəri və Kərkicahan şəhər tipli qəsəbəsi daxildir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 1 yanvar 2012-ci il tarixinə olan rəsmi məlumatına əsasən, Xankəndi şəhərinin 53,3 min nəfər, Kərkicahan qəsəbəsinin isə 2 min nəfər əhalisi vardır. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən, imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xankəndi şəhəri Rusiya sülhməramlılarının nəzarətinə keçmiş, sülhməramlı qüvvələrinin mərkəzi qərargahı burada yerləşdirilmişdir.

### "BU TORPAQLARIN SAHİBLƏRİ BİZİK, AZƏRBAYCAN XALQIDIR"

19-20 sentyabr 2023-cü ildə Azərbaycan ordusunun keçirdiyi lokal xarakterli antiterror əməliyyatının nəticəsində 29 sentyabrdan Azərbaycan polisi şəhərə nəzarəti bərpa etmişdir. "Torpaqlarımızı 30 il ərzində işğal altında saxlayan Ermənistan hesab edirdi ki, bunu əbədi edə biləcək. Biz, şanlı Azərbaycan Ordusu onlara və bütün dünyaya sübut etdik ki, bu, bizim tarixi, əzəli torpağımızdır. Bu torpaqların sahibləri bizik, Azərbaycan xalqıdır. Biz buraya qayıtmalı idik və qayıtmışıq", - deyə Prezident diqqətə çatdırıb. Dövlət başçımız bildirib ki, üç ay bundan əvvəl Xankəndi işğaldan azad edildi. Birgünlük antiterror tədbirləri nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir, bu gün bütün Qarabağ bölgəsində Azərbaycan Bayrağı dalğalanır: "Bu, böyük tarixi hadisədir və bu tarix bizim qəlbimizdə əbədi yaşayacaq. Azərbaycan xalqı, dünya azərbaycanlıları bu Zəfər ilə bundan sonra əbədi fəxr edəcəklər".

15 oktyabr 2023-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırmışdır. 8 noyabr 2023-cü ildə şəhərdə İkinci Qarabağ Müharibəsində əldə olunmuş qələbəyə həsr olunmuş təntənəli hərbi paradın keçirilməsi tariximizdə silinməz bir səhifəni təşkil edir. Qısa bir zamandan sonra 21 dekabr 2023-cü ildə Xankəndidə futbol matçının keçirilməsi növbəti qələbəmiz oldu.

### "BİZ ONLARA SÜBUT ETDİK Kİ, QARABAĞ AZƏRBAYCANDIR!"

İllər öncə yurd-yuvasından didərgin düşənlər bu gün işğaldan azad olunan ərazilərə qayıdaraq, yeni həyata başlayırlar. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yenidən qurulan ərazilərə köçlər davam edir. Yenidən çiçəklənən ərazilərimiz doğma sakinlərini qarşılamağa davam edir. İşğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Prezident İlham Əliyevin işğaldan azad olunan ərazilərimizə hər bir səfəri tarixi hadisələrlə yadda qalır. Böyük Qayıdışımız uğurla yerinə yetirilir. Artıq işğaldan azad olunan ərazilərimizin əzəli sakinləri öz dədə-baba yurdlarına qayıdırlar. İnsanların doğma yerlərdən səsləri eşidilir. Təkcə Qarabağ regionuna 2026-cı ilə qədər 140 min insanın dönməsi nəzərdə tutulur. "Biz - bu torpaqların sahibləri qurub-yaradırıq, o cümlədən Xankəndi şəhərində, Xocalıda, işğaldan azad edilmiş digər ərazilərdə geniş quruculuq-abadlıq işləri aparılır. Bu stadion cəmi iki ay ərzində, demək olar ki, yenidən inşa edilmişdir, əsaslı təmir olunmuşdur. Separatizm simvolikasını əks etdirən bütün yazılar artıq tarixin zibilxanasına atıldı. Bütün başqa şəhərlər kimi, bu gün Ağdam şəhəri də yenidən qurulur. O cümlədən bir neçə aydan sonra Ağdam şəhərində "İmarət" stadionunun yenidən inşa edilməsinə başlanılacaq".

"Dörd il bundan əvvəl bu stadionda bəziləri "Qarabağ Ermənistandır və nöqtə" demişdilər"- deyən Prezident qeyd edib ki, biz onlara sübut etdik ki, Qarabağ Azərbaycandır! "İşğal edilmiş torpaqların böyük hissəsi üç il bundan əvvəl - İkinci Qarabağ müharibəsi nəticəsində işğalçılardan azad edildi. Qarabağın tacı olan Şuşa şəhərində Azərbaycan Bayrağı qaldırıldı. Üç ay bundan əvvəl - sentyabrın 19-20-də Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə rayonları da işğalçılardan azad edildi. Oktyabrın 15-də bütün bu şəhərlərdə mən Azərbaycan Bayrağını ucaltdım. Noyabrın 8-də Xankəndinin mərkəzi meydanında Zəfər paradı keçirildi. Bu gün isə bu gözəl idman bayramını biz birlikdə qeyd edirik. Bundan sonra bu torpaqlarda Azərbaycan Bayrağı əbədi dalğalanacaq. Biz azərbaycanlılar burada əbədi yaşayacağıq! Yaşasın Qarabağ! Yaşasın şanlı Ordumuz! Qarabağ Azərbaycandır!"

### KEÇMİŞ MƏCBURİ KÖÇKÜNLƏR ƏZƏLİ TORPAQLARINDA

Azərbaycan tarixi günlərini yaşayır və bunlara şahidlik edir. Vətən müharibəsində qazandığımız Zəfərdən üç il zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Ağalı, Talış kəndələrinə, Laçın və Füzuliyə qayıdış. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Doğma yurda qayıdan Laçın sakinləri də hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Laçın rayonunun yenidən salınan Zabux kəndinə növbəti köç karvanı yola salındı. Respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya, pioner düşərgəsi, yarımçıq tikililər və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı dekabrın 22-də Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Bu mərhələdə Zabux kəndinə daha 30 ailə - 121 nəfər köçürülüb. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun qazandığı Zəfər nəticəsində məcburi köçkünlərin 30 ildən sonra könüllü, təhlükəsiz və ləyaqətlə doğma yurdlarına qayıtmasına imkan yaranıb. Xatırladaq ki, indiyədək Zabux kəndində 176 ailənin, yəni 688 nəfərin daimi məskunlaşması təmin edilib.

Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli sakinlərin bu torpaqda rahat, firavan yaşamasına istiqamətlənib.

*Zümrüd BAYRAMOVA*

# Tolerantlıq ənənələri ilə DÜNYAYA NÜMUNƏ OLAN AZƏRBAYCAN

**Müxtəlif millətlər, xalqlar, etnoslar, fərqli mədəniyyətlərə, dini inanclara, adət-ənənələrə malik insanlar arasında münasibətlərin tənzimlənməsində xüsusi rol oynayan, dövlətlər səviyyəsində xüsusi siyasi kurs olaraq qəbul olunan tolerantlıq artıq bəşəri bir dəyərə çevrilib. Ona görə bəşəri dəyərə çevrilib ki, dini və milli tolerantlıq dini dözümlülüyün, birgəyaşayışın, sülhün qarantıdır. Bəşəriyyət üçün ən dəyərli sayılan insan və insan həyatı olduğundan təhlükəsizliyin, əmin-amanlığın təmin edilməsi də ən önəmli hesab olunmaqdadır və bu səbəbdən də bir dəyər formasına çevrilən tolerantlığın bütün dünyada kifayət qədər əhəmiyyətli sayılmasının səbəbi bəllidir.**



Dini qarşıdurma və müxtəlifliyə qarşı dözümsüzlük hallarının, eləcə də bütövlükdə dünyanı bürüyə bilən sosial gərginliklərin ortaya çıxması riski, sözsüz ki, tolerantlığı təbii şəkildə gündəmə gətirir. Daha dəqiq desək, dini dözümlülüyün, birgəyaşayışın və sülhün qarantı olan dini və milli tolerantlıq olduqca vacib hesab olunur, hətta insanların əmin-amanlıq şəraitində yaşaması üçün əsas prioritetlərdəndir. Ona görə ki, müxtəlif millətlərin nümayəndələrinin və müxtəlif dini inanclara, adət-ənənələrə sahib olan insanların qarşılıqlı anlaşma və qarşılıqlı hörmət şəraitində yaşaması məhz bəşəri dəyər hesab olunan toleranlıq ənənələrindən bilavasitə asılıdır.

İctimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə dini və milli dözümlülük, tolerantlıq Azərbaycanda çox yüksək səviyyədə olub. Ona görə ki, ölkəmizdə dərin köklərə malik olan tolerantlıq xalqımızın xarakterik cəhətlərindəndir. Tolerantlıq ölkəmizdə həm bütövlükdə cəmiyyətdə, həm də hər bir vətəndaşın şüurunda, mövqeyində, münasibətində və həyat tərzində ehtiva olunan önəmli bir dəyər olaraq qəbul olunur. Hələ lap qədim zamanlardan bu günə qədər müxtəlif mədəniyyətlərin nümayəndələrinin, fərqli dini inanclara, adət-ənənələrə, fərqli mədəniyyətlərə mənsub insanların yaşadığı coğrafiyada olan Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkə olaraq tanınır və bu heç də təsadüfi deyil. Ona görə ki, ayrı-ayrı etiqad və inanclara malik etnosların min illər boyunca ölkəmizdə əmin-amanlıq şəraitində yaşaması, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanması bütün dünya ictimaiyyətinə bəllidir. Bizə məxsus olan tolerantlıq, əlbəttə ki, xalqımıza xas olan humanizmdən, eləcə də başqalarının inanclarına, dəyərlərinə hörmət prinsplərindən qaynaqlanır. Unutmaq lazım deyil ki, xalqımızın bu qədər dərin tarixi kökləri olan tolerantlıq ənənələri Azərbaycanda islami dəyərlərin qorunub saxlanması ilə daha da zənginləşmiş, daha da möhkəmlənmişdir.

Azərbaycan ərazilərində müxtəlif dövrlərdə bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar nəinki yayıla bilib, hətta biri-birinə qarşı hörmətlə yanaşılmasına görə nümunə olaraq qəbul olunmaqdadır. Fərqli sivilizasiyaların qovşağında yerləşən Azərbaycanın tarixən belə ənənələrinin olması bugünkü günə də siraət edib və əlbəttə ki, təsirsiz də ötüşməyib. Dünyada baş verən müharibələrin motivində məhz etnik-dini anlaşılmazlıqlar olduğu halda, katalizator da elə dini, milli dözümsüzlük olduğu halda, ölkəmizdə dini mənsubiyyətindən asılı olmayaraq kiməsə qarşı dözümsüzlük nümayiş etdirildiyi hələ bir dəfə də müşahidə edilməyib. Dünyanın ən inkişaf etmiş ölkələrində hətta eyni dinə, eyni adət-ənənələrə, eyni mədəniyyətə mənsub təriqətləri arasında çaxnaşmalar müşahidə edilsə də, bu günə qədər Azərbaycanda belə bir arzuolunmaz halla rastlaşmaq qətiyyən mümkün olmayıb. Hal-hazırda məhz etnik təmizləmə siyasətinə görə dünyanın 21 ölkəsində 12 milyonadək insan qaçqın və məcburi köçkün şəraitində yaşaması fonunda, Azərbaycana bu kimi mənfi halların heç birini şamil etmək mümkün deyil. Deməli, Azərbaycan dini və milli tolerantlıq baxımında da dünyaya nümunə olan ölkə hesab olunur.

Azərbaycanda vətəndaşlar, insanlar dini inanclarına, etiqadlarına, məzhəblərinə görə qətiyyən bir-birindən fərqləndirilmir və hətta bu məsələlər müvafiq qanunvericilik çərçivəsində belə tənzimlənir. Azərbaycan Respublikası Konstitusiyasının vicdan azadlığı ilə bağlı müddəalarının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması, dini etiqad azadlığı ilə əlaqədar qanunvericilik aktlarına riayət olunmasına nəzarətin təmin edilməsi, dini qurumların qeydiyyata alınması Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən müvəffəqiyyətlə həyata keçirilir. Etnik dini tolerantlığın bütün dünyada mütərəqqi demokratik dəyərlərdən biri kimi qəbul edildiyi bir zamanda bu tolerantlıq forması Azərbaycan cəmiyyətinin nümunəvi normalarına çevrilib. Azərbaycan Respublikası bu gün çoxmillətli və çox konfessiyalı dövlət kimi dünya birliyinə hərtərəfli inteqrasiya siyasəti həyata keçirir və bu siyasətin məntiqi nəticəsi olaraq hazırda ölkəmizdə bütün dini icmalar bərabər hüquqlara malikdirlər. Məhz bu baxımda da cəsarətlə deyə bilərik ki, Azərbaycan dini və milli tolerantlıqda dünya dövlətlərinə uğurlu model, örnək, nümunə hesab olunur, çünki, Azərbaycanda hər zaman bütün dinlərə hörmətlə yanaşılıb və indi də bu ənənə uğurla davam etdirilir.

"Yüksək tolerantlıq yüksək mədəniyyətin təzahürüdür", deyən Ulu Öndər Heydər Əliyev xalqımızın tolerantlıq ənənələrini hər zaman yüksək qiymətləndirib. Ümummilli Liderimizin milli-dini dəyərlərimizin qorunmasında, islam dininə hörmətin, ehtiramın göstərilməsində, xalqımızın dini əqidəsinin, dini inancının möhkənləndirilməsində öz əməli fəaliyyəti ilə müstəsna rol oynaması, əvəzsiz tövhələr verməsi məhz bu qiymətləndirmənin bariz nümunəsi sayılır. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev hazırda ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın təminatçısı və himayəçisidir.

Azərbaycan xalqı bütün dövrlərdə insanlar arasında sülh və əmin-amanlıq şəraitinin yaradılmasına əvəzsiz tarixi töhfələr verib. Dözümlülük, başqa millətlərin, xalqların, etnik qrupların nümayəndələrinin mədəniyyətinə, adət-ənənələrinə, müxtəlif dini mənsubiyyətli insanların inanclarına hörmətlə yanaşmaq, dinc yanaşı yaşamaq xalqımızın milli mentalitetinin əsas xüsusiyyətlərindəndir. Təsadüfi deyil ki, hər zaman olduğu kimi, Azərbaycan xalqı, eləcə də dövlətimiz bu gün də sülhün, əmin-amanlığın tərəfdarıdır. Ermənistan tərəfinin təxribatlarına cavab olaraq, hərbi əməliyyatlara başlanıldıqdan və işğal altında olan torpaqlarımız işğaldan azad olunduqdan, müharibədə mükəmməl qələbə qazandıqdan sonra Azərbaycan yenə də sülh təşəbbüsü ilə çıxış edir. Azərbaycan yenə də normal qonşuluq münasibətlərinin davam etdirilməsi, sülh şəraitində yaşamaq təklifini irəli sürür. Qalib ölkə, qalib tərəf olmasına baxmayaraq, Azərbaycan qonşu dövlətə sülh müqaviləsi bağlamaq təklifi edir və bu fakt özü onu deməyə əsas verir ki, həqiqətən də tolerantlıq baxımından Azərbaycan bütün dünyaya nümunə olan ölkədir.

***İnam Hacıyev***

## "COP29-un Azərbaycanda keçirilməsi Prezidentin siyasətinin növbəti uğurudur"

*ŞƏRH*

"İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransı (COP29) 2024-cü ildə Azərbaycanda keçiriləcək. Bu, möhtəşəm bir hadisədir və Prezident İlham Əliyevin siyasətinin növbəti uğurudur". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin komitə sədri Sadiq Qurbanov deyib. Onun sözlərinə görə, COP29-un Azərbaycanda keçirilməsinin bir neçə səbəbi var: "Birincisi, Azərbaycanın dünyada sabit ölkə kimi artıq tanınmasıdır. İkincisi, Azərbaycanın Qoşulmama Hərəkatına dörd il ərzində sədrlik müddətində koronavirusla bağlı 30-dan artıq ölkəyə yardım etməsi, BMT-




nin xüsusi iclasının baş tutması və s. kimi faktorlar vacib rol oynadı. Azərbaycanın Avropa məkanında enerji təhlükəsizliyin baxımdan artan nüfuzu böyük rol oynayır".

Deputat sözlərinə davam edərək bildirib ki, iqlim dəyişmələrinə səbəb olan əsas faktorlardan biri elektrik enerjisi istehsalı zamanı yanacağın yandırılması problemləridir: "Azərbaycan yeni enerji resurslarında istifadəni hədəf qoyub. Macarıstan, Rumıniya, Gürcüstan və Azərbaycan bu sahədə əməkdaşlığa imza atıblar. Külək, günəş, dalğa enerjisinin Qara dənizin dibi ilə Avropaya çatdırılması məsələləri Azərbaycan üçün prioritet istiqamətlərdir.

COP29-un keçirilməsinin əhəmiyyəti odur ki, Azərbaycanın bir daha dünyaya tanıdılması, on minlərlə insanın Azərbaycana gəlməsi və yeni düşüncənin mənimsənilməsidir. Hesab edirəm ki, COP29-da əldə olunacaq nəticələr dünyanı təəccübləndirəcək. Çünki Azərbaycan bütün rəhbər olduğu işlərdə dünyanı təəccübləndirməyi bacarıb. COP29-un Azərbaycanda keçirilməsi Prezident İlham Əliyevin yeni bir uğurunun nəticəsidir".

***Ləman Sərraf***

## "Bakı qlobal miqyasda şəhərsalma siyasətlərinin mərkəzinə çevriləcək"

*Aİ RƏSMİSİ*

Bakı qlobal miqyasda şəhərsalma siyasətlərinin mərkəzinə çevriləcək. SİA xəbər verir ki, bu barədə Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Peter Mixalko "X"də yazıb. O, Azərbaycanı 2026-cı ildə Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü sessiyasına ev sahibliyi etməsi münasibətilə təbrik edib: "Bu gözəl şəhər Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən irəli sürülən qlobal miqyasda şəhərsalma siyasətlərinin mərkəzinə çevriləcək. Uğurlar arzulayıram!"



# "Azərbaycan sülh gündəmini dəstəkləyir"



**"Ermənistan və Azərbaycan müsbət gündəmlə dünyanı təəccübləndirməyi, dünyanı heyrətləndirməyi bacarıb". Bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev BBC World-ə müsahibəsində deyib.**

"Hərbi qarşıdurma başa çatıb. Həqiqətən də Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa etdi, həmçinin Azərbaycan öz ərazilərinin 30 ildir davam edən hərbi işğalına son qoydu. Azərbaycan hələ 2020-ci ildə 44 günlük müharibə başa çatdıqdan sonra Azərbaycanın Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edib. Buna görə də Azərbaycan sülh müqaviləsinin fundamental prinsiplərini və mətnini təklif edib. Hazırda tərəflər arasında - Ermənistanla Azərbaycan arasında da diplomatik danışıqlar aparılır. Bunlar birbaşa danışıqlardır". Prezidentin köməkçisi bildirib ki, Ermənistan və Azərbaycan müsbət gündəmlə dünyanı təəccübləndirməyi, dünyanı heyrətləndirməyi bacarıb:

"Bu yaxınlarda, dekabrın 7-də, iki ölkə - Prezident Administrasiyası və Baş nazirin aparatı vasitəsilə - sülh gündəmini irəli aparmaq niyyəti, həmçinin etimad quruculuğu tədbirləri haqqında birgə bəyanat verib. Bu arada, son üç ay Ermənistan-Azərbaycan münasibətləri iki ölkənin müstəqilliyi tarixində ən sakit və ən dinc dövrlərdən biri hesab oluna bilər. Müharibə yoxdur, vəhşiliklər yoxdur, qarşıdurma yoxdur və əsgərlər kazarmalarına qayıdıblar. Nisbi sülh təmin olunub, indi onu uzunmüddətli sülhə çevirməyin, o cümlədən sülh müqaviləsinin imzalanmağın vaxtıdır. Azərbaycan regionda sülh gündəmini dəstəkləyir".

H.Hacıyev xatırladıb ki, Ermənistan ilkin olaraq işğal illərində azərbaycanlılara qarşı bədnam etnik təmizləmə aparıb: "1 milyon azərbaycanlı hələ də qaçqın və məcburi köçkün vəziyyətindədir. Humanitar məsələlərdə ayrı-seçkilik olmamalıdır. Azərbaycan 1 milyon qaçqın və məcburi köçkünü öz evlərinə qaytarmaq prosesindədir. Onlar 30 ildən artıqdır ki, bu hüquqdan məhrum ediliblər. Amma bu arada Qarabağda ermənilər yaşayırdı. Onlara qalmaq çağırışı etsək də, bəziləri Ermənistan Respublikasına getməyə qərar verdilər. Amma Azərbaycan onların geri qayıtması üçün bütün imkanları, həmçinin təhlükəsizliyi və təhlükəsizliyini təmin edir. Bu səbəbdən biz vətəndaşlıq müraciəti üçün xüsusi elektron portal yaratmışıq. Birincisi, ermənilərin geri qayıtması üçün müvafiq qanunvericilik bazasını müəyyən etməliyik. Burada əsas ilkin şərtlərdən biri Azərbaycan vətəndaşlığını qəbul etmək və Azərbaycanın qanun və qaydalarına uyğun yaşamaqdır. Bu səbəbdən biz bunu aydınlaşdırdıq və hər bir halda biz bütün müvafiq hüquqi müraciətləri nəzərdən keçirməyə və baxmağa hazırıq".

"Ermənistan özü azərbaycanlılara qarşı etnik təmizləmə aparıb, bu, real faktdır. Ermənistan 30 ildən artıq işğalçı ölkə olub. Ermənistan Azərbaycanın işğal altında olan ərazilərini dağıdıb. Bu, bir reallıqdır. Ermənistan Azərbaycanın suveren ərazilərində separatçı quruma dəstək verib. Azərbaycan separatçı qurumun mövcudluğuna və onun hərbi komponentinə son qoymağa məcbur idi. Amma indi buna son qoyulub. İndi regionun sülh haqqında və sülh yolu ilə transformasiya haqqında düşünməsinin vaxtıdır. Azərbaycan birbaşa sülh danışıqlarının tərəfdarıdır. Bu arada biz digər vasitəçilik səylərindən və ya təklif edilən yaxşı konsepsiyalardan qaçmırıq. Amma vacib olan odur ki, Ermənistan və Azərbaycan bir araya gələrək sülh bağlamalıdır. Sülh əldə edildikdən sonra hesab edirəm ki, digər ölkələr və tərəfdaşlar da bunu dəstəkləyə bilər", - Prezidentin köməkçisi qeyd edib.

H.Hacıyev əlavə edib ki, Azərbaycan sülh gündəmini dəstəkləyir və sülh Bakı ilə İrəvan arasındadır.

# XİN Azərbaycanda jurnalistlərin və siyasi fəalların saxlanması ilə bağlı Aİ-nin ittihamlarını rədd edib

**"Avropa İttifaqının (Aİ) Azərbaycanda jurnalistlərin və siyasi fəalların saxlanması ilə bağlı əsassız ittihamlarını qətiyyətlə rədd edirik." Bu fikir Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadənin Avropa İttifaqının Azərbaycan əleyhinə iddiaları ilə bağlı bəyanatına dair şərhində yer alıb.**

Bildirilib ki, nazirlik bu cür əsassız və qərəzli bəyanatları Azərbaycanda məhkəmə hakimiyyətinin müstəqilliyinə müdaxilə cəhdləri kimi qiymətləndirir. İstintaqın gedişatına müdaxilə edilməsi qəbuledilməzdir və məhkəmə prosesinin işinə müdaxilə hüquqi dövlətin əsas prinsipi olan qanunun aliliyi prinsipinə ziddir.

"Təəssüf hissi ilə qeyd edirik ki, Aİ-nin Ermənistanda insanların fundamental hüquq və azadlıqlarının pozulması, siyasi təqiblər nəticəsində həbs edilmiş şəxslərin həbsxanalarda həyatlarını itirməsi hallarına, habelə siyasətçilər və onların ailə üzvlərinə qarşı təqiblərə biganə qalması ikili standartların bariz nümunəsidir.

Ölkəmizə qarşı bu kimi əsassız bəyanatlarla çıxış etmək əvəzinə, qarşı tərəfin Aİ üzv dövlətlərində insan hüquqlarının pozulması hallarına diqqət yetirməsini tövsiyə edirik. Aİ tərəfi Fransada "sarı gödəkçələr" aksiyasında 12 nəfər üzvün öldürülməsi, Aİ strukturlarında rüşvətxorluq və korrupsiya hallarının yayılması, İslamofobiya və müsəlmanlara qarşı hücum faktlarını hələ də araşdırmayıb və adekvat münasibət bildirməyib.



Qeyd edilənlər fonunda, Aİ-nin bu cür qərəzli və ədalətsiz bəyanatları Azərbaycanın daxili işlərinə müdaxilə kimi qiymətləndirilir. Bu əsassız iddialar Azərbaycan və Aİ əlaqələrinin inkişaf perspektivlərinə zərbə vurur", - deyə XİN-in bəyanatında vurğulanıb.



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Putin Baydeni və NATO-nu Ukraynada "dəfn edir"...

Hə, qoca Co Baydenin Rusiyanı küncə sıxmaq, qanlı Ukrayna müharibəsi hesabına Rusiya ilə Qərb arasındakı sərhəd xəttini Polşadan Ukraynaya keçirmək, sanksiyalarla Rusiya iqtisadiyyatını çökdürüb məhv etmək planı demək olar ki, "suya düşüb". 1970-ci illərdə Moskvaya səfər edən senator C.Bayden, o zaman Leonid Brejnevlə, Yuri Andropovla, habelə Andrey Qromıko ilə görüşlərində beyninə belə bir ideya qoymuşdu ki, gec-tez Rusiyanın qərb ilə sərhədlərini yeniləmək lazımdır. Ta o vaxtdan bəri ABŞ siyasətinin qoca quzğununa çevrilən C.Bayden dəfələrlə keçmiş sovet ərazilərində olmazın təxribat və "rəngli inqilab" şouları təşkil etməklə açıq şəkildə Rusiyaya nifrət hissini ortaya qoymağa başladı. Məsələnin "mustafası" bu idi: Rusiyanı hətta keçmiş sovet ərazilərindən sıxışdırıb çıxarmaq, Vladimir Putini devirməklə Moskva üzərində istədiyi oyunu oynamaq.

Düzdür, hətta o dərəcədə diletant və xəyalpərəst olmalısan ki, Rusiyanın siyasi coğrafiyasında onu itaətkar, oyuncaq bir dövlət halına salmağı düşünəsən. Amma görünür ki, C.Bayden administrasiyası keçən ilin 24 fevralında rus tankları üzünü Ukraynaya sarı çevirəndə şadyanalıq edib Ağ Evdə şampan partladırdılar və onların ağlında olan tək "düşüncə" nəyin hesabına olursa-olsun Rusiyanın qulağının dibində xaos və müharibə yaratmaq arzusu idi. Rusiyanı Ukrayna bataqlığına sürüklədikləri üçün.

Amma fərqində deyildilər ki, V.Putindən daha çox ABŞ Ukrayna "bataqlığına" yuvarlanıb. Bu barədə sonra danışacağıq. Bəli, hətta ilk günlər V.Putinin, sadəcə, adından titrəmə keçirən qərb liderləri günlər keçdikcə daha da cəsarətlənməyə, rus tanklarını dayandırdıqdan sonra üzü Moskvaya hücum edəcəklərinə gün kimi əmin olduqlarını ucadan deməyə başladılar. Düzdür, Kiyevə tərəf yol alan rus tankları bir qədər sonra özləri geri çəkilib getməli oldular. Hə, onu da nəzərə alaq ki, müharibənin ilk günlərindən Ukrayna uniformasında NATO və digər qərb dövlətlərinin peşəkar orduları, könüllü qrupları Rusiyaya qarşı döyüşməyə başladılar. Son aylara qədər ABŞ başda olmaqla qərb dövlətləri Ukraynaya milyardlarla dollar həcmində maliyyə yardımı, silah-sursat, ən müasir hərbi texnika və qırıcılar göndərirdilər. Bütün Avropada belə bir rəy formalaşmışdı ki, sanki Ukrayna Rusiyaya qarşı qərbi qorumaq üçün döyüşür və iki slavyan ölkəsindən birinə var gücləri ilə pul, silah göndərmək onların əsas vəzifəsidir.

Sanki Ukrayna Rusiyanın qərb ilə səngər xətti kimi təqdim edilirdi. Hətta peşəkar aktyor sayılan Vladimir Zelenski də bu yaxınlarda Ukraynanı NATO-ya qəbul etməkdən boyun qaçıran qərb liderlərinə belə hədələyici mesaj yolladı: "Ukraynadan sonra növbə qərbindir". Amma deyəsən, gün keçdikcə Ukraynanı yetim inək balası kimi yedizdirən qərb dövlətləri bundan o qədər yorulublar ki, Ukraynaya arxa çevirməyə başlayıblar. Çünki iki ilə yaxındır ki, bütün NATO üzvləri qeyri-rəsmi olsa da, Ukraynada Rusiyaya qarşı vuruşurlar, amma müharibədə heç bir nəticə yoxdur, Rusiya ordusu son bir ay ərzində hər dəfə bir Ukrayna yaşayış məntəqəsini ələ keçirir, qərbdəkilərin isə milyardlarla dollarları və silah-sursatı havaya uçur. İş o yerə çatıb ki, ABŞ generalları da dilə gələrək, silah arsenalının əhəmiyyətli şəkildə Ukraynada xərcləndiyini, bunun Pentaqonun planlarına daxil olmadığını, ABŞ ordusunda bu itkilərin hiss edilməyə başlandığını elan edirlər. Yuxarıda dediyimiz faktı təkrarlayıram: 80 yaşlı, huşu gedib-gələn C.Bayden bilərəkdən, ya da bilməyərəkdən ABŞ-ı çıxılmaz Ukrayna "bataqlığına" sürükləyib. V.Putin bu "bataqlıqdan" əsgər itkisi ilə çıxsa da, ABŞ böyük maliyyə və hərbi arsenal itkisi baxımından o bataqlıqda hələ də ilişib qalıb. Artıq ABŞ cəmiyyətində də Ukrayna müharibəsinə qarşı ciddi etirazlar başlayıb. "The New York Times" yazır ki, ABŞ vergi ödəyiciləri Ukraynaya çoxmilyardlıq maliyyə yardımlarından yorulublar. Qəzetin keçirdiyi sorğular göstərir ki, ABŞ-da ukraynalıların silahlanmasına ictimai dəstək azalır.

Hələ keçən ilin sonlarında Respublikaçılar Partiyasından olan Nümayəndələr Palatasının üzvü, deputat Den Bişop bəyan etmişdi ki, ABŞ Ukraynaya bir dollar da ayırmamalıdır. Deputatın fikrincə, Vaşinqton diqqətini daxili problemlərə cəmləməlidir. Bu barədə Rusiya mediası "The American Conservative" qəzetinə istinadən xəbər verir. Bişop ABŞ-ı Ukraynanı maliyyələşdirməyi dayandırmağa çağırıb və vurğulayıb ki, Kiyevə "bitməyən" yardımlar Prezident Co Baydenin "Sonuncu Amerikadır" siyasətinin bariz nümunəsidir.

Və... və V.Putin artıq usta şahmatçı kimi uzun səbirdən sonra hücum silahını işə salıb. C.Baydenin ideyalarını açıq şəkildə cəfəngiyyat adlandıran Kreml rəhbəri NATO və qərbdəkilərin yanında yer alanlara mesaj da yollayıb. Kreml rəhbəri həm də sadə ruslara səslənib. Sitat: "Ruslar yadda saxlamalıdırlar ki, Rusiya ya suveren güc olacaq, ya da ümumiyyətlə olmayacaq, bu fikir onların beyinlərində və ürəklərində olmalıdır. Biz yadda saxlamalı və heç vaxt unutmamalıyıq və uşaqlarımıza öyrətməliyik: Rusiya ya özünü təmin edən, suveren bir güc olacaq, ya da ümumiyyətlə olmayacaq. Bu, həmişə ağlımızda və qəlbimizdə olması gərəkən çox vacib bir şeydir. Buna görə də gələcəyimizi özümüz müəyyən edəcək və yaradacağıq. Rusiyanı beş yerə parçalamaq istəyənlər isə tezliklə əsl Rusiyanın gücünü daha möhkəm hiss edəcəklər. Biz heç nəyi unutmamışıq", - Putin bildirib. Aydın görünür ki, Kreml sahibi artıq müdafiədən hücuma keçib və həm 80 yaşlı yaddaşını itirən C.Baydenin növbəti prezident seçkilərində məğlub olacağına, həm də artıq qərbdəkilərin V.Zelenskiyə milyardlarla dollar pul və silah-sursat daşımaqdan təngə gəldiklərindən əmindir. Keçmiş KQB generalı hazırkı vəziyyətdən zövq ala-ala NATO-nu və C.Baydenin ideyalarını Ukraynada dəfn etməyə hazırlaşır. Hətta Ukrayna Avropa İttifaqına üzvlük üçün sevindirilsə belə...

# Dövlət proqramları və reallaşan hədəflər



Dövlət başçısının həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran, innovativ inkişafa yol açan dövlətə çevrilir. Şübhəsiz ki, bütün bunlar dünyanın bir sıra nüfuzlu iqtisadi mərkəzləri tərəfindən də rəğbətlə qarşılanır və Azərbaycanın iqtisadi inkişafı yüksək qiymətləndirilir. Bu uğurlar Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi sosial-iqtisadi siyasətin alternativsiz olduğunu və aparılan islahatların cəmiyyətin bütün təbəqələrinin mənafelərini əks etdirdiyini bir daha göstərir. Ölkəmizin 2003-cü ildən yeni inkişaf mərhələsinə qədəm qoyaraq, dövrün çağırışlarının öhdəsindən yüksək səviyyədə gələrək, qazandığı biri-birindən əhəmiyyətli uğurları ilə dünyanın diqqətindədir. Bu uğurlara yol açan əsas amil isə möhkəm təmələ əsaslanan siyasətdir.

Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasındadır.

## İQTİSADİ İNKİŞAF PARAMETRLƏRİNƏ GÖRƏ DÜNYADA LİDER MÖVQEYƏ MALİK AZƏRBAYCAN

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, 2004-cü ildən ötən müddət ərizində regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. 2004-2022-ci illərdə ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib. Elektrik enerjisinin 76%-i regionlarda istehsal edilir. Regionlarda qazlaşdırmanın səviyyəsi 94%-i ötüb, fasiləsiz içməli su alan əhali üzrə göstərici 9%-dən 73%-ə çatıb. Bu illərdə 9 hava limanı tikilib və yenidən qurulub. Laçın hava limanının tikintisi isə davam edir. Həmin müddətdə əsas hissəsi bölgələrə aid olmaqla 3.600-dən çox məktəb, 760-a yaxın tibb müəssisəsi tikilib və ya təmir olunub, 43 Olimpiya İdman Kompleksi tikilib, çoxlu sayda körpü və tunellər, yollar istifadəyə verilib. İstehsal və sənaye müəssisələrinin çoxu bölgələrə aiddir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycan iqtisadi inkişaf parametrlərinə görə dünyada lider mövqeyə malik olub. Rəqəmlərə nəzər salsaq görərik ki, 2003-2023-cü



illərdə dövlət büdcəsinin xərcləri 1,2 milyard manatdan 36,6 milyard manata çatıb. Strateji valyuta ehtiyatları 2003-cü ildə 1,4 milyard dollardan 2023-cü il oktyabrın 1-nə 66,1 milyard dollara qədər artıb.

## "YENİ QURUCULUQ DÖVRÜ, İNKİŞAF DÖVRÜ, AZAD EDİLMİŞ ƏRAZİLƏRİMİZİN BƏRPASI DÖVRÜ"

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri həm Vətən müharibəsində, həm də lokal antiterror tədbirləri zamanı peşəkarlığını, qarşısına qoyulmuş vəzifələri ən yüksək səviyyədə icra etmək məharətinə malik olduğunu bir daha nümayiş etdirdi. 30 ilə yaxın işğal altında olan və 44 günlük Vətən müharibəsi zamanı azad olunan hər bir ərazidə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. Artıq işğaldan azad olunan ərazilərimizdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında genişmiqyaslı yenidənqurma, bərpa-quruculuq işləri davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində "Bizim ölkəmiz üçün yeni dövr başlayır", deyərək artıq ölkəmizdə yeni dövrün başlandığını bildirmişdi: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə öz sözümüzü demişik, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

## HƏR BİR KƏND, ŞƏHƏR VƏ QƏSƏBƏ MÜASİRLƏŞİR

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın uğurla icrası bu baxımdan böyük önəm daşıyır. Bölgədə müxtəlif sahələri əhatə edən layihələrin icrası məqsədilə dövlət büdcəsindən 2021-ci ildən bu günədək 12 milyard manata yaxın vəsait ayrılıb. Bununla yanaşı, bərpa və quruculuq işlərinə özəl investisiya cəlb olunması əsas məqsədlərdəndir. İnvestisiya cəlbi ilə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, məhsuldar ərzaq istehsalına əsaslanan dayanıqlı təcrübələrin tətbiqi, turizmin təşviqi və digər tədbirlər gerçəkləşdirilir. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə buraya yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri xüsusi qeyd edilməlidir.

Qlobal iqtisadiyyatda "yaşıllaşma və karbonsuzlaşma" meyilləri qeyri-resurs iqtisadiyyatının inkişafı üçün imkanlar yaradır. Bu baxımdan, Qarabağ və Şərqi Zəngəzurun əhəmiyyətli potensialı var və bu, xarici investorların marağını cəlb edir. Artıq bu sahədə xarici investisiyalı müəssisələrin yaradılması ilə bağlı addımlar atılıb.

İşğaldan azad olunmuş ərazilərdə aparılan işlər üzrə, Füzuli və Zəngilan hava limanları inşa edilib, Laçın (Qorçu) Hava Limanında tikinti işləri davam edir. Horadiz-Ağbənd (110,4 km) və Bərdə-Ağdam (47,1 km) dəmir yollarında tikinti işləri aparılır, Füzuli-Şuşa (79 km) dəmir yolunun layihələndirilməsi işləri başa çatdırılıb. Ümumi uzunluğu 177,9 km avtomobil yollarının inşası başa çatdırılıb, 666,1 km yollarda isə tikinti işləri davam etdirilir. Ağdam və Füzuli şəhərlərində tikiləcək avtovağzal komplekslərinin layihələndirmə işləri aparılır.

İşğaldan azad edilmiş ərazilərə "Ağıllı şəhər" (Smart City) və "Ağıllı kənd" (Smart Village) konsepsiyaları nəzərə alınmaqla əhalinin dayanıqlı məskunlaşması təmin olunur

Azərbaycanın dilbər guşəsi Qarabağımız və Şərqi Zəngəzur müasir dünyamızda yeni dövrünü yaşayır. Qarabağımız müasir dünyanın ahəngində qurulur, ona yeni həyat verilir. Bu gün Zəfər qazanan Azərbaycan tarixin dönəmində inkişaf yolu keçmiş Qarabağımızda böyük quruculuq işlərinə başlanılıb. Şuşada, Zəngilanda, Laçında və digər ərazilərdə böyük abadlıq-quruculuq işlərinə başlanılıb. İşğaldan azad olunan hər bir şəhər, qəsəbə və kənd müasir məkana çevrilir.

***Zümrüd BAYRAMOVA***

## Yeni Azərbaycan Partiyası 50 min seçici imzasının olduğu imza vərəqələrini MSK-ya təqdim edib

***Yeni Azərbaycan Partiyası 50 min seçici imzasının olduğu imza vərəqələrini Mərkəzi Seçki Komissiyasına (MSK) təqdim edib. Bu barədə Yeni Azərbaycan Partiyasının rəsmi sosial şəbəkə hesablarında məlumat verilib.***

*Məlumatı təqdim edirik:*

Yeni Azərbaycan Partiyası 2024-cü il fevralın 7-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidenti seçkilərində Azərbaycan Respublikası Prezidentliyinə irəli sürdüyü namizəd İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün topladığı 50 min seçici imzasının olduğu imza vərəqələrini Azərbaycan Respublikası Seçki Məcəlləsinin 58.1-ci maddəsinə əsasən tələb olunan digər sənədlərlə birlikdə bu gün, dekabrın 26-da Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir.

*Xeyirli-uğurlu olsun!*

Bu prosesin qısa müddət ərzində və mütəşəkkil surətdə həyata keçirilməsində zəhməti olan bütün siyasi həmfikirlərimizə təşəkkürümüzü bildirir və fürsətdən istifadə edərək partiya üzvlərimizi, bütün Azərbaycan xalqını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik edir, hər birinizə möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq, doğma Azərbaycanımıza isə sülh və tərəqqi, Azərbaycan Respublikası Prezidenti, partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da yeni-yeni qələbə və Zəfərlər arzu edirik. Yaşasın Azərbaycan! Qədirbilən Azərbaycan xalqına eşq olsun!

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı***

BAXIŞ BUCAĞI

# Kremldən Paşinyana MDB "şapalağı"



Sankt-Peterburqda Rusiya prezidenti Vladimir Putin tərəfindən ənənəvi olaraq Yeni il qabağı çağırılan MDB dövlət başçılarının qeyri-rəsmi görüşü başlayıb. Sammitin ev sahibi Rusiya prezidenti Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistandan olan həmkarlarını danışıqlar masası arxasında deyil, Sankt-Peterburqun saray və park komplekslərini gəzərkən ünsiyyətə başlamağa dəvət edib. Birlik ölkələrinin liderləri Pavlovsk Muzey-Qoruğuna gəliblər. İkitərəfli görüş keçirən Azərbaycan və Belarus prezidentləri istisna olmaqla, bütün qonaqları Pavlovskda xor Milad mahnıları ilə qarşılayıb.

## Paşinyan Sankt-Peterburqa niyə gəldi?

Ermənistanın baş naziri Nikol Paşinyan da Rusiyaya iki günlük işgüzar səfərə gedib.



Bir müddət əvvəl Rusiya-Ermənistan münasibətlərində tamamilə təbii olan şey indi az qala sensasiyaya çevrilib. Baş nazir əvvəlcə Avrasiya Ali İqtisadi Şurasının iclasında, dekabrın 26-da isə MDB-nin qeyri-rəsmi sammitində iştirak edib.

Erməni mediası bu səfərə xüsusi diqqət yetirir, çünki son vaxtlar Ermənistan rəsmiləri postsovet məkanında baş verən hadisələrə açıq-aşkar etinasızlıq göstərməyə başlayıblar. Oktyabrda Paşinyan AİI və MDB-nin hökumətlərarası şuraları üçün Bişkekə getməyib. Oktyabrın 23-də o, Minskdə keçirilən KTMT sammitini buraxıb. Rəsmi İrəvanla Moskvanın münasibətlərində əslində nə baş verir? Cavab vermək üçün, son bir neçə ildə bununla bağlı əslində nə baş verdiyini xatırlamaq lazımdır, çünki diplomatlar arasında indi izləmək dəbdədir.

## Paşinyanın ”nöqtə”si

2018-2020-ci illərdə Paşinyan dəfələrlə bəyan edib ki, ”Dağlıq Qarabağ”ın beynəlxalq səviyyədə tanınması onun üçün mütləq prioritetdir. 2019-cu ilin mayında Şuşada ”şəhərin azərbaycanlılardan azad edilməsi”nin ildönümünü ”səsli-küylü” qeyd etdi. 2019-cu ilin avqustunda isə Paşinyan Xankəndi stadionunda olarkən: ”Artsax Ermənistandır, nöqtə”, dedi. Lakin o, hakimiyyətə gəldikdən sonra ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar prosesini dayandıraraq problemin mahiyyətinə varmağın zəruriliyini əsas gətirdi. Və gələcəkdə baş nazir ”Dağlıq Qarabağ” problemini Minsk qrupunun əvvəlki prosesləri əsasında həll etmək üçün heç bir istək nümayiş etdirmədi.

## ”Centlmen müqaviləsi”

2020-ci il oktyabrın 20-də Qarabağda döyüşlərin qızğın vaxtında Rusiya prezidenti Vladimir Putin Paşinyana böyük itkilərə yol verməmək üçün müharibəni dayandırmağı təklif etdi. Bu, böyük döyüş və ərazi itkilərinin qarşısını almağa imkan verəcəkdi. Eyni zamanda, ermənilər düşünürdülər ki, ”Dağlıq Qarabağ”ın statusu məsələsi də gündəmdə qalıb. Lakin bundan sonra Ermənistanın baş naziri fərqli hərəkət etmək qərarına gəldi. Nəticədə müharibənin müvəqqəti dayanmasında həlledici töhfə verən Putin Azərbaycan qoşunlarının Xankəndiyə girməsini son anda dayandıra bildi.

Eyni zamanda, Rusiya prezidentinin vasitəçiliyi ilə ən yüksək səviyyədə üçtərəfli ”centlmen razılaşması” əldə olundu. Bu, eyni zamanda Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasına başlamaqla, status-kvonun hələlik saxlanmasına imkan verdi. 10 noyabr 2020-ci il bəyanatı bu prosesin əsasını qoydu. Məntiq Azərbaycan və Ermənistan arasında nəqliyyat kommunikasiyalarının açılması, sərhədin delimitasiyası və demarkasiyası, ictimai fəallar, ekspertlər və parlamentarilər arasında dialoqun qurulması idi. Bu yolla Bakı ilə İrəvan arasında ”körpülər qurmaq” və sonra sülh müqaviləsi bağlamaq nəzərdə tutulurdu.

## Aİ-nin təşəbbüsü və...

Çətin vaxtlarda Ermənistanın beynəlxalq aləmdə yeganə real müttəfiqi kimi çıxış edən Rusiyadan fərqli olaraq, Qərb İrəvana sadəcə, nümayişkaranə dəstək verdi. ABŞ, Kanada və Avropa adi bəyanatlarla məhdudlaşdılar, erməni diasporlarının rolu isə Ermənistan üçün həmrəylik və maliyyə vəsaitlərinin toplanması kimi kiçik aksiyalara qədər azaldıldı. Bu arada, ən azı 2021-ci ilin sonuna qədər üçtərəfli razılaşma qüvvədə idi. Paşinyanın



həmin ilin dekabrında verdiyi bəyanatı da buna işarə edirdi: ”Dağlıq Qarabağ dünya birliyi tərəfindən Azərbaycanın ərazisi kimi tanınır”.

Amma sonra Avropa İttifaqı İrəvanla Bakı arasında münasibətlərin normallaşması prosesinə müdaxilə etdi. Brüssel nəyin bahasına olursa olsun təşəbbüsü Rusiyadan ələ keçirmək niyyətində olduqlarını gizlətmədi və bu gün də gizlətmir. Aİ Ermənistan-Azərbaycan münasibətlərinin tərs qaydada qurulmasını nəzərdə tutan sxemini təklif etdi. Birincisi, iki ölkənin ərazi bütövlüyünü təmin edən sülh müqaviləsi. Və yalnız bundan sonra - sərhədin delimitasiyası və kommunikasiyaların blokdan çıxarılması. Paşinyan bu sxemlə razılaşmaq müqabilində respublikanın təhlükəsizliyini təmin edəcəyinə söz verən Qərbin yolu ilə getdi. O, ölkə ictimai rəyini belə bir dönüşə hazırlamağa başladı. 2022-ci ilin ap-



relində Ermənistanın baş naziri ”Artsaxın statusu məsələsində maksimalist iddianı aşağı salmağın” zəruriliyini bəyan etdi və ”status... məqsəd deyil, ermənilərin təhlükəsizliyini və hüquqlarını təmin etmək vasitəsidir” dedi.

2022-ci il oktyabrın 6-da Praqada Əliyev və Paşinyan ərazi bütövlüyü və suverenliyinin qarşılıqlı tanınmasını qeyd etdilər. Rəsmi İrəvan bunu sonradan dəfələrlə açıq şəkildə təsdiqlədi. Yeri gəlmişkən, Praqanın yekun bəyanatında Qarabağda yaşayan ermənilərin hüquqlarının və təhlükəsizliyinin təmin edilməsi məsələsi heç bir şəkildə qeyd olunmurdu.

## Müqaviləni yenidən yazmaq?

2023-cü il mayın 14-də Brüsseldə Aİ-nin himayəsi ilə keçirilən Ermənistan-Azərbaycan görüşündə Paşinyan razılaşıb ki, Azərbaycanın ərazisi 86,6 min kvadrat kilometrdir. Yəni bura Qarabağ da daxildir. Ermənilər Qarabağın ”statusu”nun ləğvində Ermənistan rəhbərliyinin də əli olduğunu düşünürlər. Üstəlik, Brüsseldəki sammitdən sonra Ermənistanın baş naziri Qarabağ ermənilərinin maraqlarını müdafiə etməkdən tamamilə geri çəkilərək, bu məsələlərin Bakı-Xankəndi formatında müzakirə edilməli olduğunu bildirdi. Amma Bakı əvvəldən tutduğu yolu dəyişməyərək separatçılarla danışığı mümkünsüz hesab etdi.

## Sülhməramlılar son ana qədər

Bütün bunlar Bakıya Dağlıq Qarabağ üzərində nəzarətin yekun bərpasına başlamağa imkan verdi. Bu, Laçın sərhəd keçid məntəqəsinin yaradılması ilə başladı: 2022-ci il dekabrında ekoloji fəalların etiraz aksiyası da öz sözünü dedi. Bunun qarşısını almaq üçün Rusiya sülhməramlı kontingentinin imkanları son dərəcə məhdud idi - lazımi mandat yox idi. Lakin son vaxtlara qədər sülhməramlılar Qarabağ erməniləri üçün əllərindən gələni edirdilər ki, atəşkəs rejiminə nəzarətdən tutmuş ”humanitar” yüklərin daşınmasına qədər, bütün bunlar əvvəlki vəziyyətinə gətirilsin. Amma Azərbaycan daha çevik reaksiya verirdi ki, bu da manevr imkanlarını sıfıra endirirdi.

Moskvanı təəccübləndirən odur ki, Rusiya sülhməramlılarının hərəkətləri daim Ermənistan rəhbərliyinin kəskin tənqidləri ilə müşayiət olunurdu. Məhz İrəvanın Qarabağla bağlı radikal dönüşü ona gətirib çıxardı ki, sülhməramlıların yerləşdirilmə şəraiti kökündən dəyişdi. Belə ki, artıq sülhməramlılar Azərbaycanın dünya birliyi tərəfindən tanınan ərazilərində yerləşirdi. Bakını məsələni birdəfəlik həll etməsi artıq an məsələsi idi.

## Sıfır rol

Deyəsən, Qərb nəhayət İrəvanı Qarabağdan imtina etməyə inandıra bilmişdi. Yəni, Qərb dairələrinin də çıxış yolu yox idi, ya beynəlxalq sənədlərə, ya da cəngəllik qanunlarına istinad etmək gərəkirdi. Azərbaycan rəhbərliyinin apardığı siyasət Avropanı pat, İrəvanı isə mat vəziyyətinə salmışdı. 2023-cü il sentyabrın 19-20-də Azərbaycanın apardığı antiterror tədbirləri isə qondarma separatçı qurumun mövcudluğunun sona çatmasına səbəb oldu. Eyni mənada, Ermənistanın təhlükəsizliyinin təmin edilməsində rolu sıfıra bərabər olan Aİ-nin Azərbaycanla sərhəd bölgəsində müşahidə missiyasının yerləşdirilməsi ilə bağlı İrəvanın razılığını da nəzərdən keçirməyə dəyər. İrəvan həmçinin Aİ üzvlərinin Ermənistanda peyda olmasından əvvəl Təşkilatın bütün altı ölkəsinin xarici işlər nazirləri tərəfindən razılaşdırılan KTMT missiyasını yerləşdirməkdən də imtina edib. Sentyabrın 20-də Qarabağdakı separatçı qurum özünü buraxdı və əhalinin Qarabağdan çıxarılması üçü son missiyasına baş vurdu. Ermənilərin əksəriyyəti, daha doğrusu I Qarabağ müharibəsindən və ondan sonrakı dövrdə dünyanın müxtəlif ölkələrindən gətirilmiş erməni əsillilər regionu tərk edib əvvəlki yerlərinə qayıtdılar.

## Bir sıra ciddi səhv hesablamalar

Siyasi olaraq sağ qalmağı əsas məqsədi sayan Paşinyan Qarabağdakı ermənilərin köçünün bütün günahını Moskvanın üzərinə yıxmaqla özünə haqq qazandırmağa çalışır.



Rusiya sülhməramlıları isə hər hesabatında belə bir fikri xüsusi olaraq vurğulayırlar ki, ”Ermənistan hakimiyyəti tərəfindən taleyin ümidinə buraxılmış Qarabağın tarixi dəyərlərini və dini ziyarətgahlarını indi sülhməramlılar qoruyur”. Təbii ki, bütün bunlar ”sülhməramlıların orada nə işi var”, deyənlərə bir cavab kimi səslənir. Başqa söz tapa bilmirlər.

ABŞ dövlət katibinin müavini Ceyms O'Brayen 2023-cü il noyabrın 15-də Vaşinqtonun 2025-ci ilə qədər Rusiya sülhməramlılarının Qarabağdan çıxarılmasına nail olmaq istədiyini açıq şəkildə bəyan etdikdən sonra məlum oldu ki, Qərbin yeganə məqsədi Rusiyanı regiondan sıxışdırmaqdır. Paşinyanın Aİ və ABŞ-la, o cümlədən Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması ilə bağlı çıxışları sadəcə anti-Rusiya xarakteri daşıyır və Qərbə öz dağıdıcı işlərində ona kömək edir. ABŞ Qafqazda Yuqoslaviya, Əfqanıstan, İraq və Liviyadakı məntiqlə hərəkət edir. Acınacaqlı nəticələr, o cümlədən Ermənistanın baş nazirinə məlumdur, lakin bu, ona mane olmur.

***V.VƏLİYEV***




# Siyasi məğlub, yaxud da "TOPAL ÖRDƏK"

Hər ilin sonunda ölkələrin iqtisadi nəticələri ilə yanaşı, eləcə də siyasi nəticələrini də nəzərdən keçirmək, müvafiq nəticələr çıxarmaq olduqca əhəmiyyətlidir. Qlobal miqyasda qaliblər və məğlublar barədə onsuz da hər kəs məlumatlıdır və dünya ictimaiyyəti dövlət başçılarının öz ölkələrini hansı uğura doğru apardığını, qələbələr qazandırdığını, yaxud da hansılarınsa öz ölkələri üçün məğlubiyyət acısı yaşatdığını, bundan sonra da məğlub duruma sürüklədiyini çox yaxşı bilir. Çünki vətən torpaqlarını işğaldan azad edən, ərazi bütövlüyünü, suverenliyini tam olaraq bərpa edən, ölkəyə qələbə bəxş edən Azərbaycan Prezidenti cənab İlham Əliyevin düşünülmüş, məqsədyönlü şəkildə əldə etdiyi uğurlar da, qazandırdığı Zəfər də göz önündədir, Ermənistan və Fransa kimi ölkələrin işğalçılıq niyyətli yanlış siyasət yürüdən dövlət başçılarının uğursuzluqları və məğlubiyyətləri də diqqətdən yayınan deyil.

Dünya ölkələrinin hansı vəziyyətdə, hansı durumda olması, əlǝlxüsus da ilin sonuna doğru yaxınlaşdıqca, onsuz da təhlil edilməkdədir. Bu təhlillər zamanı Azərbaycan bayrağının bu gün ölkə ərazisinin artıq hər yerində dalğalandığı mütləq şəkildə nəzərə alınır. Nəzərə alınır ki, Ermənistanın işğalçılıq siyasətinə dünyanın əksər ölkələrinin göz yummasına, onların müşahidəçi mövqeyinə, işğalçılığa qarşı müqavimət belə göstərməməsinə, təsir belə edilməməsinə baxmayaraq, Azərbaycan bayrağı artıq işğaldan azad edilmiş torpaqlarımızda dalğalanır və bu, məhz ölkəmizin öz gücü, öz potensialı, öz qüdrəti sayəsində reallaşdırılıb. Deməli, ölkəmizin qalib ölkə, Azərbaycan Prezidentinin də qalib lider, qələbə bəxş edən dövlət başçısı olduğu artıq öz təsdiqini tapıb və qeyd edildiyi kimi, təhlillər zamanı bütün bunlar qətiyyən diqqətdən yayına bilməz, heç yayınmır da.

Əlbəttə ki, dünya ölkələrinin liderləri arasında uğursuz fəaliyyəti ilə diqqəti cəlb edənlər də var və onlar haqqında da, onların uğursuzluqları, məğlubiyyətləri barədə də kifayət qədər qeydlər aparılır, nəzərdən də kənarda qalmır. Sözsüz ki, həmin qeydlərdə dünyanın ən qabaqcıl ölkələri və onların dövlət başçılarının adları öz əksini tapmaqdadır. Məsələn, ATƏT-in Minsk Qrupu kimi bir vaxtlar tanınan və artıq "yox" hesab edilən bir qurumun həmsədr ölkələri olan Fransa və ABŞ kimi ölkələrin dövlət başçılarının uğursuzluqları ilk növbədə diqqət mərkəzində olur. Nümunə üçün diqqətə çatdıraq ki, Amerikanın "Fox News" telekanalının tərtib etdiyi ən çox siyasi məğlublar siyahısına elə ABŞ prezidenti Baydenin adını da qeyd edib. Telekanal bunu tam məntiqi şəkildə də əsaslandırıb. Belə ki, ABŞ dövlət başçısının siyasi məğlublar siyahısında olmasını Baydenin aşağı reytinqi və Konqresdə ona qarşı başlanmış impiçment prosesi ilə izah edib. "Fox News" qeyd edib ki, ümumiyyətlə, o, demək olar, hər yerdə - Yaxın Şərqdə və Rusiya-Ukrayna müharibəsi məsələsində uğursuzluğa düçar olmaqdadır.

"Fox News" deyil, Fransaya məxsus hansısa bir telekanal da analoji sorğu keçirsə, siyasi məğlublar siyahısını tərtib etsə, Emmanuel Makronun ən başqa qərarlaşdırılacağını əminliklə söyləmək olar. Çünki bunun üçün kifayət qədər əsas var və məntiqi nəticələr onu deməyə imkan verir ki, Fransa prezindenti ən məğlub lider kimi qəbul olunmaqdadır. Məhz bu baxımdan da, elə qabaqcadan belə bir proqnoz vermək də tamamilə məntiqidir. Fransadakı son sorğu məlumatlarından da görünür ki, belə bir məntiqlə çıxış etməkdə hər kəs haqlıdır. Hər halda, sorğunun nəticələrinə əsasən, Emmanuel Makronun administrasiyasından bezmiş 18-24 yaşlı gənclərin 54%-inin ölkəni tərk etmək istəyi də Fransa prezidentinin siyasi məğlub olduğunu təsdiqləyən məqamdır. Fransanın "Le Journal du Dimanche" nəşrinin rəy sorğularının son nəticələrindən belə məlum olur ki, iqtisadi və siyasi depressiyadan əziyyət çəkən vətəndaşlar Fransanın gələcəyinə ümidsizliklə baxırlar. Bütün yaş qruplarından olan əhalinin 69%-inin Fransanı tərk etmək istəyi səbəbsiz deyil. Yəqin ki, Fransa kimi bir Avropa ölkəsini tərk etmək niyyətinin səbəbi vətəndaşların özləri ilə deyil, məhz həmin ölkənin prezidentinin uğursuz, uyğunsuz, yanlış siyasət aparması və siyasi məğlub olması ilə bağlı olduğu hər kəs tərəfindən qəbul edilməkdədir.

Sual oluna bilər ki, axı niyə məhz Emmanuel Makron siyasi məğlub olaraq qəbul olunmaqdadır? Onun belə siyasi məğlub sayılması üçün axı kifayət faktlar var və hər halda həmin faktlar barədə məlumatlı insanlar yetərincədir. Əlǝlxüsus da fransızlar bu barədə ümumiyyətlə, hamıdan yaxşı bilirlər, çünki uğursuzluğunun zərbəsi daha çox onlara dəyir. Mütəmadi olaraq müxtəlif qalmaqallara burun soxan Fransa prezidenti elə ölkəsində belə tənqid atəşinə tutulur. Makronun sələfi Fransua Olland özü belə onu tənqid edib. Məşhur "Elle" jurnalında da Fransa prezidenti barədə tənqidi köşə yazısının olması diqqəti cəlb edir. Həmin yazıda Emmanuel Makronun əsl siması barədə qeyd olunur. Əlǝlxüsus da, yırtıcıların tərəfini tutan adam kimi göstərilir. Hər halda, bunun da səbəbsiz olmadığı bəllidir. Çünki Makronun həqiqətən də işğalçıların, vandalların, vəhşilərin, elə məhz yırtıcıların yanında olması, onları dəstəkləməsi dəfələrlə öz təsdiqini tapıb.

Afrikada törədilən vəhşiliklərin, yerli xalqlara qarşı vandallıq əməllərinin dəstəklənməsi, buna haqq qazandırılması üçün gərək elə Makronun özü olmaq lazım imiş, əks halda, yəni humanizmi müdafiə edən biri qətiyyən belə etməzdi. Yaxud da, erməni separatçılarının hələ ötən əsrin sonlarında törətdiyi əməllərə, işğalçılıq siyasətinə, qonşu ölkə ərazisini zəbt etməsinə, etnik təmizləmə üçün bütün vasitələrə əl atmasına, soyqırımlar törətməsinə, bütün bunların fonunda insanların kütləvi şəkildə qırğınlarını törətmələrinə, əsrin üçdə birinə yaxın müddət ərzində Azərbaycan ərazilərini işğal altında saxlamalarına qətiyyən göz yummaz, haqqın, ədalətin, yəni işğala məruz qalan xalqımızın tərəfində olardı. Amma bunu qətiyyən görən, müşahidə edən olmadı, çünki ona haqq, ədalət yox, şəxsi maraqları vacib göründü və bu maraqlar da onu yırtıcıları, vəhşiləri dəstəkləməyə sövq edirdi ki, nəticədə məğlubiyyətlə qarşılaşmalı, siyasi məğlub sayılmalı oldu.

Fransa prezindentinin bircə dəfə də olsa, ermənilərin törətdikləri kütləvi insan tələfatına görə Ermənistanı, separatçıları qınaması bir yana, hətta bu qanunsuz əməllərə, cinayət əməllərinə müxtəlif formada dəstək də verdi. Münaqişənin həllində mükəlləf olan ATƏT-in Minsk Qrupunun həmsədr ölkəsi olan Fransa, həmin ölkə prezidenti Makron separatçıların qanunsuz silahlı dəstələrinin, Ermənistan qoşunlarının işğal etdiləri əraziləri qeyd-şərtsiz tərk etmələrini tələb edən BMT-nin məlum dörd qətnaməsini də onullar boyunca qətiyyən dəstəkləmədisə, deməli, barəsində müvafiq söz deyənlər haqlıdırlar. Üstəlik, həmin o sözügedən qətnamələrin icrasını Azərbaycan reallaşdırdığı zaman Fransa hakimiyyətinin, əlǝlxüsus da Makronun bundan, yumşaq desək, "narahat olması" onun əsl simasını ortaya qoydu. Xüsusən də, kapitulyasiya sənədini imzalayaraq, təslimçilik aktına qol çəkən Ermənistan hakimiyyəti sülh təşəbbüsünə qoşulmağa hazırlaşdığı bir məqamda revanşist əhval-ruhiyyənin qızışdırılması üçün işğalçı ölkəyə Fransanın silah-sursat, hərbi texnika göndərməsi təsdiq edir ki, həqiqətən də Makron məhz işğalçıların, vandalların, yırtıcıların yanındadır. Amma ona xatırlatmaq indi yerinə düşərdi ki, məhz həmin o işğalçılar, vandallar, yırtıcılar nə qədər qurdalansalar da, atılıb-düşsələr də yenə məğlubdurlar və onlarla bir yerdə, onların yanında olan da elə məğlub sayılır. Yəni, Emmanuel Makronun elə bu səbəbdən də siyasi məğlub hesab olunması tamamilə doğrudur.

Diqqətə çatdıraq ki, Fransanın "Le Figaro" qəzeti Makronun xoruz ölkəsində klassik "topal ördəyə" çevrildiyini açıq şəkildə qeyd edib. Əlbəttə ki, onun axsaq, topal olması qənaətinə gəlinməsi üçün kifayət qədər əsas da gətirilir. Statistik göstəricilər bir tərəfə, fransızların 67%-i respublikanın qarşısında duran problemlərin həlli üçün hazırkı prezidentə inanmadığı açıq şəkildə bildirirlər. Emmanuel Makron fransızların etimadını qətiyyən qazana bilmir və onun nəinki bundan sonra seçilməsinə, heç seçkiyə qədər belə mövcud olmasına kimsə artıq inana bilmir. "Fransızların 67%-i respublikanın qarşısında duran problemlərin həllinə ona inanmır! Parlamentdə onu dəstəkləyənlərdən başqa Makron heç kimə arxalana bilməz", - deyə "Le Figaro" nəşri yazır yazır. Deməli, artıq həmin ölkə mediası belə onun siyasi məğlub olduğunu açıq şəkildə qeyd edirsə, artıq buna zərrə qədər də şübhə ola bilməz.

Bəli, Makron sözün əsl mənasında, demək olar ki, hər istiqamətdə uğursuzluğa düçar oldu. İstər Fransanın öz daxilində və istərsə də ölkə xaricində özünü siyasi ölü kimi göstərdi. Əlǝlxüsus da Cənubi Qafqazda özünü tamamilə rüsvay edən Fransa prezidenti siyasi məğlubiyyətini daha da sürətləndirdi. İşğalçılıq siyasətini, işğalçını dəstəkləyən, işğala məruz qalanı, qanuni haqqını tələb edən tərəfi hədəfə alan Makron sonda özünü siyasi məğlub kimi tanıtdı. Çünki Azərbaycanın qələbəsinə qətiyyən nə mane ola bilmədi, nə də zərrə qədər xələl gətirmək mümkün olmadı. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü bərpa etdi və Cənubi Qafqazın təhlükəsizliyinin təminatına da öz töhfələrini vermiş oldu. Makron isə həmin təhlükəsizliyə mane olmaq üçün sonda hətta casus şəbəkəsini də işə saldı və bu zaman diplomatiyanı belə qarışdırmaqla, Vyana Konvensiyasına hörmətsizlik etdi, beynəlxalq hüququn norma və prinsplərini ciddi şəkildə pozdu. Bununla da olmayan nüfuzunu yerləyeksan etdi və rəsmi Parisi belə zərbə altında qoydu. Deməli, siyasi məğlub kimi elə bütün dünyada qəbul olundu. Həqiqətən də, indi Emmanuel Makron elə məhz Fransanın "Le Figaro" nəşrinin yazdığı kimi, "topal ördək" olaraq tanınmaqdadır. Çünki, istər Fransada, istərsə də bütün dünyada 2023-cü ilin əsas uduzan, siyasi məğlub "titulunu" fəxrlə daşımaqdan başqa onun çarəsi qalmayıb.

***İnam Hacıyev***

# Turizm sənayesinin inkişaf perspektivləri

## Azərbaycana gələn turistlərin sayının 10 milyona çatması hədəflənir

Hazırda dünya ölkələri arasında iqtisadi əlaqələrin sürətlə inkişaf etdiyi bir dövrdə turizm xarici iqtisadi fəaliyyətin ən dinamik inkişaf edən sahələrindən birinə çevrilib. Müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirib və bu əlaqələrin bir qolu olan turizm sahəsində görülən işlər təqdirəlayiqdir. Təbii ki, müasir dünyada turizm iqtisadiyyatın əsas inkişaf və gəlir istiqamətlərindən biri kimi dəyərləndirilir. Ölkəmizdə bütün sahələrdə olduğu kimi, turizminin inkişafına da dövlət tərəfindən ayrılan diqqət və qayğı bu sahəni iqtisadiyyatının aparıcı sahəsinə çevirməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində demişdir: "Turizm sahəsi həm regionların inkişafı, həm də ki, ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir".

Görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Turizm sektorunda göstərilən xidmətlərin yalnız kəmiyyət göstəriciləri baxımından deyil, keyfiyyət baxımından da təkmilləşdirilməsi, turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq üçün ixtisaslı kadrların hazırlanması prosesi davam etdirilir.

Odlar diyarı kimi səciyyələndirilən ölkəmizdə bu sahənin tərəqqisi üçün geniş potensial vardır. Təsadüfi deyildir ki, dünyada olan 11 iqlim qurşağından 9-u ölkəmizdədir. Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır. Qədim tarixi abidələri, coğrafi şəraiti baxımından diqqətdə olan Azərbaycanın bir çox məkanlarına turistlərin axını davam etməkdədir.







### MÜASİR DÜNYADA TURİSTLƏRİN SƏYAHƏT SEÇİMİ

Prezident İlham Əliyev tərəfindən turizmə göstərilən diqqətin nəticəsidir ki, bu gün Azərbaycan perspektivli turizm ölkəsinə çevirib. Son illər ərzində ölkəmizdə mehmanxana və mehmanxana tipli obyektlər tikilərək istifadəyə verilib. Azərbaycanın turizm coğrafiyası genişlənib. Gün-gündən inkişaf edən respublikanın iqtisadiyyatında turizm sektoru prioritet sahəyə çevrilib. Ölkənin turizm sahəsinin təqdim etdiyi xidmətlərin keyfiyyət səviyyəsinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması istiqamətində görülən işlər davamlı olaraq həyata keçirilir. Ölkənin bütün regionlarında turizm fəaliyyətinin stimullaşdırılması, turizm sahəsinə yerli və xarici investisiyaların cəlb edilməsi, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, mehmanxanaların və digər turizm xidməti müəssisələri şəbəkəsinin genişləndirilməsi istiqamətində ardıcıl işlər görülməkdədir.

Ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Turizm sektorunda göstərilən xidmətlərin yalnız kəmiyyət göstəriciləri baxımından deyil, keyfiyyət baxımından da təkmilləşdirilməsi, turistlərin məmnunluq səviyyəsinin artırılmasına nail olmaq üçün ixtisaslı kadrların hazırlanması prosesi davam etdirilir.

Ölkə başçısının məqsədyönlü və balanslı xarici siyasəti, uğurlu daxili siyasəti nəticəsində Azərbaycan bu gün dünya üzrə ən təhlükəsiz və sabit ölkələr sırasındadır. Bu amil isə müasir dünyada turistlərin səyahət seçimi etməsində ən əsas göstəricidir.

### SAĞLAMLIQ TURİZMİNİN İNKİŞAFI ÜÇÜN UNİKAL MƏKANLAR - QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR

Müasir dövrdə sağlamlıq turizmi turizm sektorunun ən sürətlə inkişaf edən formalarından biridir. Davamlı olaraq ünvanlı layihələr, turizm sahəsində reallaşan layihələr, görülən işlər ölkənin müxtəlif bölgələrində turizmin fərqli növlərinin, sağlamlıq, qış, mədəni, işgüzar, idman turizmi, ekoturizm və kənd turizmi kimi növlərinin inkişafına ciddi təsir göstərib. Çoxsaylı tarixi abidələr, düzənlikdən yüksək dağ zonasına qədər bir-birini əvəzləyən gözəl təbiət mənzərələri, zəngin meşə örtüyü, əlverişli iqlim, gur dağ çayları, mineral və qeyri-mineral bulaqlar, barlı-bəhərli meyvə bağları, atla gəzinti, meşə gəzintisi, balıq ovu, göldə qayıqla gəzinti və s. turizmin inkişafı üçün mühüm amillər sırasında yer alır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında rəşadətli Ordumuz 44 günlük Vətən müharibəsində 30 il həsrətində olduğumuz torpaqları işğaldan azad etdi. Hazırda həmin ərazilərdə aparılan bərpa-quruculuq işlərində turizm infrastrukturunun yaradılmasına xüsusi diqqət yetirilir. Təbii ehtiyatlar, iqlim şəraiti, tarixi irs həmin ərazilərdə sağlamlıq turizminin inkişafı üçün unikal imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzur bölgələri respublikanın əsas turizm zonasına çevriləcək. Xüsusilə sağlamlıq turizmi. Qeyd edək ki, Kəlbəcərdə 5 turizm rekreasiya zonası yaradılacaq. Bunlardan 2-si İstusu və Zülfüqarlı turizm rekreasiya zonaları sırf sağlamlıq turizmi baxımından ixtisaslaşmış zonalar olacaq. Burada sırf sağlamlıq turizminin inkişafı üzərində işlər aparılacaqdır. Azad edilmiş ərazilərdə sağlamlıq turizminin potensialı çox böyükdür. Vurğulayaq ki, Xocavənddə Hadrut, Ağbulaq, Tuğ və Böyük Tağlar, Zəngilanda Qaragöz, Qubadlıda isə Qubadlı turizm və rekreasiya zonaları olacaq. Onu da vurğulayaq ki, Kəlbəcərin məşhur olan "İstisu"yu dünyada məşhurdur. İstisu kəndinin məşhur mineral suyu olan "İstisu" bulağı ətrafında 1928-ci ildə eyni adlı sanatoriyası salınıb. Kəlbəcər rayonu İstisu mineral ehtiyatı və "İstisu" sanatoriyası ilə bütün dünyada tanınıb. Mənbələrə görə, istisu mineral bulaqları 1138-ci ildə güclü zəlzələ nəticəsində meydana çıxıb. Öz kimyəvi tərkibinə və bir çox digər xüsusiyyətlərinə görə İstisuyun dünyada analoqu yoxdur. Burada suyun temperaturu müsbət 58,8 dərəcədir.

### MİLLİ PARKLARI 252 485 TURİST ZİYARƏT EDİB

Ölkəmizin tarixi mədəniyyət abidələri var. Azərbaycanın ən məşhur turistik əhəmiyyətli Şəki Xan Sarayı, Nuhun qəbri, Naxçıvan diyarı, Qubanın Xınalıq kəndi, Qəbələ üzüm bağları, Talış dağları və s. turistlər üçün çox maraqlı məkanlardır. Ölkəmizdə mövcud olan qoruqları ziyarət edənlərin sayında son illərdə artım müşahidə edilir. Bu gün Azərbaycanda 28 tarixi qoruq var ki, onların 14-ü tarixi-mədəniyyət qoruğu, 8-i tarixi-memarlıq, 2-i tarixi-bədii qoruqdur. Təkcə Yanardağ həm tarixi-mədəniyyət, həm də təbiət qoruğu olaraq fəaliyyət göstərir. Qobustan Dövlət tarix-bədii qoruğu, Nardaran tarix-mədəniyyət qoruğu, Keşikçidağ Dövlət Tarix-Mədəniyyət Qoruğu, Lahıc Tarix-Mədəniyyət Qoruğu, "Çıraqqala" Tarixi-Memarlıq Qoruğu, "Şabran şəhəri" Tarixi Qoruğu, "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğu və s. dövlət səviyyəsində qorunur və mühafizə olunur. Qoruqların fəaliyyəti müasir tələblər səviyyəsində təşkil edilir. Ziyarətçilərin qoruqları rahatlıqla ziyarət etmələri üçün müvafiq infrastrukturun yaradılmasından tutmuş, elmi tədqiqatların aparılmasına qədər ən müxtəlif istiqamətlərdə tədbirlər həyata keçirilir. Qoruqların bir qismindən turizm məqsədləri üçün istifadə edilir. Son illərdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Yanardağ" Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğu, "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğu, "Keşikçidağ" Dövlət Tarix-Mədəniyyət Qoruğu və "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğu yaradılıb. "Qobustan" Milli Tarix-Bədii Qoruğu ərazisində qoruğun yeni inzibati binası tikilmiş və müasir texnologiyalarla təchiz edilmiş ekspozisiyası yaradılmışdır. Əlbəttə ki, bu gün abidələrin qorunması təmin edilmiş, əraziləri abadlaşdırılmış və yeni turizm marşrutları müəyyən olunmuşdur. Bu qoruqlar müasir tələblərə cavab verən turizm obyektlərinə çevrilməkdədir.

Ekoloji turizmə də önəm verilməsi son illər bir ənənəyə çevrilib. 2023-cü ilin ötən dövrü ərzində milli parkları 252 485 turist ziyarət edib. Ən çox ziyarətçi qəbul edən və ilk üçlükdə yer alan milli parklarımız - Kəpəz dağı, Göygöl və Maralgöl gölləri ilə zövqləri oxşayan Göygöl Milli Parkı, Abşeron yarımadasının ada və dəniz mənzərəli Şahdili burnunda gəzmək fürsəti təqdim edən Abşeron Milli Parkı, Qaranohur gölü, şəlalələri ilə gözoxşayan, zubr və Xallı maral ilə turistlərin diqqət mərkəzində olan Şahdağ Milli Parkıdır. Ölkəmizdə 116 ekoloji turizm marşrutunu əhatə edən 10 milli park, 10 dövlət təbiət qoruğu və 24 dövlət təbiət yasaqlığı var.

2026-cı ilə daxili və xarici turistlərin sayının 10 milyona çatması hədəflənir. Cari ilin yanvar-noyabr aylarında 1 milyon 890 mindən çox əcnəbi vətəndaş Azərbaycana səfər edib. Turistlər əsasən Rusiya, Türkiyə, İran, Hindistan, Pakistan, Özbəkistan və Qazaxıstandan gəliblər. Əvvəlki ilin eyni dövrü ilə müqayisədə 30 faiz artım vardır.

### TURİZMİN İNKİŞAFINA AÇILAN YOL

İqtisadi inkişaf nəticəsində turizm sektoruna da xüsusi dövlət qayğısı, o cümlədən sahibkarlıq fəaliyyətinə əlverişli mühitin yaradılması dünyanın tanınmış otel şirkətlərinin də ölkəmizə axınını gücləndirib. Əgər bu gün "Four Seasons", "Fairmont", "Mariott", "Hilton", "Kempinski", "Jumeirah", "Sheraton", "Hyatt" kimi dünyanın səkkiz aparıcı otel brendi Bakıdadırsa, artıq bu ölkəmizin inkişafının bir göstəricisidir. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Bakıda beşulduzlu otellərin sayı durmadan artır. Beşulduzlu otellərdə rahat və gözəl yerləşmə, yüksək xidmət və cazibəli interyer diqqəti cəlb edir. Təbii ki, belə hotellərin inşası Azərbaycana gələn turistlərin marağının artmasında əhəmiyyətli rol oynayır. Bu gün nəinki paytaxt Bakıda, eləcə də Azərbaycanın bir çox yerlərində ən müasir səviyyədə otellər tikilib. Şimal-qərb zonasında, Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Prezident İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir. İnkişaf etmiş sivil dünyanı maddi abidələri, yeraltı və yerüstü sərvətləri ilə heyrətləndirən Azərbaycanda yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması mövsümilik anlayışını aradan qaldırmaqla davamlı turizmə nail olmağa şərait yaratdı. Şahdağ qış-yay turizm kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirmiş oldu. Dünyadakı bu tipli komplekslərdən müasirliyi və universallığı ilə fərqlənən kompleks Şahdağ qış-yay turizm kompleksi müasir tələblərə cavab verir. Azərbaycanda yol, nəqliyyat və digər infrastrukturun müasirləşdirilməsi də turizmin inkişafına yol açıb.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Uşağı kitab oxumağa necə alışdırmaq olar?



oxumasını istəyən valideyn özü də ona nümunə olmalıdır. Belə ki, valideynin kitab oxuduğunu görən uşağın da kitab oxumağa həvəsi yaranır. Ümumiyyətlə, uşağı düzgün tərbiyə etmək istəyən valideyn ona düzgün nümunə olmağı bacarmalıdır. Uşaqlara kitabları sevdirmək üçün evdə kitab guşəsi yaratmaq da önəmlidir. Bir otaqda və ya otağın hansısa küncündə müxtəlif qəzet, jurnal və kitablardan təşkil olunmuş kitabxana təşkil etməklə uşağın diqqətini cəlb etmək olar. Bununla yanaşı uşaqları müntəzəm kitab mağazasına aparmaq, orada müəyyəm vaxt keçirərək uşağın da marağını nəzərə almaqla onun üçün ədəbiyyat seçmək lazımdır. Əgər övladınızın seçdiyi kitab sizi maraqlandırmırsa, həmin kitabı almaqdan imtina etməyin. Uşağın seçiminə hörmət edərək onun kitab oxumağa olan həvəsini daha da artıracaqsız. Eləcə də həftədə 1-2 dəfə ailəvi kitab oxuma saatları təyin etmək yaxşı nəticə verəcək. Hər bir ailə üzvünün oturub kitab oxuması ailə üzvlərinin arasında mehribanlığın artması-









MÜNASİBƏT

"Mütaliə etmək insanın biliyini artırmaqdan əlavə qavrama, fantaziya və yaradıcılıq qabiliyyətini, həyat təcrübəsini də artırır. Yeni sözlərin öyrənilməsi, yeni hadisələrin, obrazların dərk edilməsi sayəsində beyin inkişaf edir. Kitab oxuyan insan daha savadlı yazır və fikrini daha düzgün çatdıra bilir". Bu sözləri SİA-ya psixoloq Arzu Qurbanova deyib. Onun sözlərinə görə, kitab oxumağı alışqanlıq halına gətirmək olar: "Çox vaxt valideynlər uşaqların kitab və ya dərs oxumağa marağının olmamasından şikayət edir. Onlar hər nə etsələr də, uşaqlarda kitab oxumağa həvəs yarada bilmirlər. Uşaqları kitab oxumağa həvəsləndirmək üçün ilk növbədə onlarda bu vərdişi yaratmaq lazımdır. Bunun üçün valideynlər, yaxud nənə-baba və ya dayə uşaqlara kiçik yaşlarında yatmazdan əvvəl kitab oxumalı və bunu hər gün eyni vaxtda etməlidirlər. Müşahidələr göstərir ki, belə uşaqların qavrama qabiliyyəti artır və onlar təhsildə daha çox nailiyyətlər əldə edirlər"."Uşağının kitab na, uşaqların daha da savadlı böyüməsinə təsir edir",- deyə o əlavə edib.Həmsöhbətimiz hesab edir ki, oxunan kitabları birgə müzakirə etmək də uşaqda kitaba, biliyə qarşı marağı formalaşdırır: "Belə ki, müzakirələr nəticəsində uşaq kitabda yazılanları daha yaxşı başa düşəcək. Eləcə də oxunan kitablar haqqında fikirləri 1 dəftərə qeyd etmək də olar. Bu üsul uşaqda öz fikrini düzgün çatdırmaq qabiliyyətini artırır".

***Ləman Sərraf***

## ANAMA: Mina hadisəsində xəsarət alan şəxsin vəziyyəti qənaətbəxşdir




**Dekabrın 26-da işğaldan azad edilmiş Ağdam rayonunun Sarıcalı kəndi ərazisində Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı1982-ci il təvəllüdlü Mahmudov Zaur Eldar oğlu xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə mina partlayışı baş verib.**

ANAMA-nın mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Zaur Mahmudov rayon xəstəxanasına yerləşdirilib. Müayinə zamanı daban sümüyü və ayaq daraq sümüklərinin sınığı aşkarlanıb. Xəsarət alan şəxsə bütün zəruri tibbi dəstək göstərilib. Vəziyyəti qənaətbəxşdir.



Elçin Bayramlı

## Qış ölümlərindən necə qurtulmalı?

**Yenə qış gəldi və dəm qazından zəhərlənmə halları artır. Son illərdə aparılan maarifləndirmə və təhlükəsizlik qaydalarına riayət edilməsi nəticəsində illik statistikada azalma olsa da, belə hallar tam aradan qalxmır. Ona görə də, insanlar diqqətli olmalı, evdə qaz cihazları və borularının normal vəziyyətdə olmasına və hava çıxışlarının təmiz olmasına fikir verməlidirlər.**

Bəzi hallarda suqızdırıcı qaz cihazlarının qapalı hamamda qoyulması və hamam otağının hava çıxışları olmadığından karbon-monoksiddən boğulma baş verir. Bu qazın iy-qoxusu olmadığından hiss etmək mümkün olmur.

Evlərdə quraşdırılmış qaz avadanlıqlarından düzgün istifadə olunmadığı müddətcə bu vəziyyət davam edəcək. Üstəlik, bu avadanlıqların quraşdırılması mütəxəssislər tərəfindən deyil, həvəskar ustalar və ya ev sahibi tərəfindən həyata keçirilirsə, təhlükə ikiqat artır.

Qazsızmalar da böyük faciələrə yol aça bilir. Mütləq şəkildə mənzillərdə və obyektlərdə qaz detektoru olmalıdır. Hazırda bu cihazlar ucuz qiymətə hər yerdə satılır. Qiymətlər 20-30 manatdan başlayaraq dəyişir.

Qaz təchizatçısının üzərinə düşən öhdəlikləri də qeyd etməliyik. İndiyədək qaz işçilərinin mənzilə daxil olması qadağan idi, onlar yalnız sayğaca qədər baxa bilərdilər. Bu ildən etibarən qaz istismar idarələri əməkdaşlarına mənzillərdə qaz təhlükəsizliyini yoxlamaq səlahiyyəti verilib. Texniki müayinələr bütün ölkə üzrə aparılacaq və təhlükəsizlik normalarına riayət olunması təmin ediləcək.

Azəriqaz-ın yerli idarələri öz ərazilərindəki bütün evlərdə, obyektlərdə mütəmadi baxış keçirməli, abonentlərin qaz təhlükəsizliyinə necə riayət etdiklərini yoxlamalıdırlar. Əlbəttə, bunu tez-tez etmək texniki cəhətdən və vaxt baxımından mümkün olmaz, amma uyğun bir müddət müəyyənləşdirilib ardıcıl olaraq həmin müddətdən bir bu yoxlamalar aparılmalıdır. Qaz təhlükəsizliyini kobud pozan, qaz sistemində özbaşına yolverilməz dəyişikliklər edənlər müvafiq qaydada cəzalandırılmalıdır. Bundan başqa maarifləndirmə tədbirləri artırılmalıdır.

Normal işləməyən, standartlara cavab verməyən qaz cihazları təhlükə mənbəyidir. Karbon-monoksid qazın natamam yanması nəticəsində əmələ gəlir. Çünki yanma tam getməyəndə dəm qazı karbon qazına çevrilə bilmir. Normal yanma zamanı isə dəm qazı tam yanaraq karbon 4-oksidə çevrilərək tüstü boruları vasitəsi ilə xaric olunur. Əgər tüstü bacası da təmizlənməyibsə artıq bu zəhərli qaz kənara çıxa bilmir və evdə toplanır. Nəticədə zəhərlənmə və ölüm halları baş verir.

Qış fəsli hələ təzə başlayıb, qaz cihazlarına düşən yük artır və təbii olaraq təhlükə də artacaq. Ona görə də, abonentlər qaz sisteminin yoxlanmasını təmin etməli, qazdan istifadə zamanı müvafiq təhlükəsizlik qaydalarına riayət etməlidirlər ki, faciə baş verməsin. Qazla bağlı təhlükəsizliyinin təmin olunması, qəza və ölüm hallarının baş verməməsi üçün hər şey başdan düzgün edilməlidir.

Əvvəla, evə, mənzilə, obyektə qazın çəkilişi ixtisaslaşmış lisenziyalı şirkətlər tərəfindən aparılmalıdır və Azəriqaz tərəfindən yoxlanılıb rəy verildikdən sonra qaz sistemində özbaşına heç bir dəyişiklik edilməməlidir.

İkincisi, qaz cihazları və avadanlıqlarından istifadə edərkən mütləq standartlara cavab verən, müvafiq seritifikatı olan avadanlıqlar seçilməlidir.

Üçüncüsü, qazla davranış haqda təlimatlara riayət edilməlidir. Mənzilin hava çıxış bacaları təmizlənməlidir.

Dördüncüsü, mənzildə qaz detektoru olmalıdır. Hazırda bu cihazlar ucuz qiymətə hər yerdə satılır.

Beşincisi, suqızdırıcı qaz cihazları qapalı hamamda quraşdırılmamalıdır. Əgər başqa imkan yoxdursa, bu halda hamamın hava çıxışı təmiz olmalılıdır, üstəlik qapıların aşağı hissəsində bir neçə yarıq qoyulmalıdır. Bu şərtlərə riayət edilsə, heç vaxt hər hansı bir qəza, o cümlədən dəm qazından zəhərlənmə olmaz. Yeni ildə qazla bağlı faciələrin baş verməməsi ümidi ilə...

# Müstəqillik tariximizin ən böyük büdcəsi təsdiqləndi

"Prezident İlham Əliyev "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" qanunu təsdiqləyib. Ölkəmizin iqtisadi potensialı və hazırkı inkişaf dinamikası, eyni zamanda, müasir çağırışlar nəzərə alınmaqla hazırlanan 2024-cü ilin büdcəsi müstəqillik tariximizin ən böyük büdcəsidir. Gələn ilin dövlət büdcəsinin gəlirləri 34 milyard 173 milyon manat, xərcləri 36 milyard 763 milyon manat məbləğində nəzərdə tutulur. Gələn il üçün icmal büdcənin gəlirləri isə 38 milyard 998 milyon manat, xərcləri 42 milyard 376 milyon manat, kəsiri isə 3 milyard 379 milyon manat həcmində proqnozlaşdırılır. 2024-cü ildə də müdafiə və milli təhlükəsizlik xərcləri büdcənin xərc istiqamətləri sırasında əsas yerlərdən birini tutur. Bu, cari ilin təsdiqlənən büdcə layihəsində 5 milyard 320 milyon manat məbləğində vəsait yönəldilməsi nəzərdə tutulur". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, dövlət başçısının tapşırığına uyğun olaraq 2018-ci ildən başlanan sosial islahatlar uğurla davam edir: "2018-2023-cü illər ərzində ölkəmizin sosial müdafiə sistemi xeyli təkmilləşib. Orta aylıq əmək haqqı 70%, minimum əmək haqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə, orta aylıq pensiya 2,1 dəfə, sosial müavinətlər və təqaüdlər üzrə xərclər 5 dəfə, median əmək haqqı 2,1 dəfə, əmək haqqı fondu 2,6 dəfə artıb, ehtiyac meyarı yaşayış minimumuna çatdırılıb. Gələn il üçün dövlət büdcəsi dünyada gedən proseslərə uyğun, balanslaşdırılmış bir büdcədir. Həm gəlir, həm də xərc hissəsinin artmı nəzərdə tutulub. Sentyabrda keçirilən antiterror tədbirlərindən sonra torpaqlarımız tam olaraq işğaldan azad olundu, suverenliyimiz təmin olundu. Ərazilərin bərpası, burada məskunlaşma, yenidənqurma işlərinin həyata keçməsi və "Böyük Qayıdış" proqramının uğurla davam etdirilməsi səbəbindən 4 milyard manat vəsaitin sərf ediləcəyi nəzərdə tutulub. Proqrama görə, yaxın 2 ildə bölgəyə 140 mindən çox vətəndaşımızın köçürüləcək. Ümumilikdə isə indiyə qədər bərpa-quruculuq işlərinə, infrastruktur layihələrinə 12 milyard manat vəsait xərclənib. Sosialyönümlü, sosial-müdafiə, sosial-təminat xərclər də büdcədə çox mühüm yer tutur. Təxminən 15,8 milyard manat və yaxud da dövlət büdcəsinin 44%-ni bu xərclər təşkil edəcək. Əmək haqlarının ödənilməsi, səhiyyə xərcləri, təhsil xərcləri, elm və mədəniyyət xərcləri, sosial müdafiə və sosial təminat xərclərinin hər birində cari illə müqayisədə artım müəyyən edilib".



***Səbinə Hüseynli***

# FELYETON



## Yumurta yeməyin!

Ay camaat, yeni xəbər var, qulaq verin, deyirik. Bu gün Molla Nəsrəddin gəlmişdi redaksiyamıza, oradan-buradan söhbət düşdü, gəlib dayandı bu yumurtanın üstündə. Dedik, ay Molla əmi, çıxıb gedib oturmusunuz o dünyada, dərdsiz-qəmsiz. Nə vecinizə, bunun məktəbi, xəstəxanası var, bazarı-dükanı var, hərəsində də özü qədər problem, di bunların öhdəsindən gəl görüm, necə gəlirsən.

Allahın yumurtası nədir, gəl, qiymətinə bax, onu da tapsan. Odur ey yığıb aparırlar Rusiyaya. Deyirlər, burada yumurta çox istehsal olunur, nə olar ki, Rusiyaya satılanda. Aparsınlar, nə işimizə. Amma deyir, Rusiyada norma ilboyu adambaşına 290 ədəd yumurta olduğu halda, onlar 350 yumurta istehlak edirlər. Bunun da əsas hissəsini Rusiya özü istehsal edir və az bir hissəsini Belarusdan idxal edirmiş, indi isə tələbat artdığına görə Azərbaycan və Türkiyədən idxala başlayıb. Bizdə isə il ərzində adambaşına norma 290 ədəd olduğu halda, 190-200 ədəd istehlak edilir. Azərbaycan özünü beynəlxalq normaya uyğun olaraq yumurta ilə təmin etmədiyi halda, Rusiyaya yumurta göndərir ki, bu da bahalaşmanın səbəbidir.

İndi, Molla əmi, bu məsələ bir az qaranlıq qalır. Allah səni yaxşı yetirib, bəlkə bir aydınlıq gətirəsən, nə üçün ruslar yumurtanı bizdən çox yeyirlər? Biz isə normadan çox az yeyirik? Nə üçün biz yumurtanı camaatın boğazından kəsib Rusiyaya göndəririk? Bax bunları bizə izah et, fikirdən ta başımız çatlayır.

Molla əmi:

-Mən də deyirəm bunlar səhərdən nəyi fikirləşib tapa bilmirlər. Ay bala, burada qaranlıq nə var ki. Ruslar yumurta sevəndirlər. Ona görə də çox yeyirlər. Görürlər ki, ölkədə yumurta azalır, tez bizdən, ordan-burdan alırlar ki, yumurtanın qiyməti sabit qalsın, qalxmasın.

-Molla əmi, bizdə amma yumurtanın qiyməti hər gün qalxır. Kənd yumurtası bilirsiniz, neçəyədir? 35-40 qəpik.

-Ay bala, mal yeməzin malını yeyərlər də. Rusiyada bir adam il ərzində 290 əvəzinə 350 yumurta yeyir. Sizdə isə bir adam 290 əvəzinə 190-200 yumurta yeyir. Bunu da qida ilə əlaqədar aid qurumlar görür, yumurta xarab olmasın deyə satırlar Rusiyaya. Burda nə var ki...

-Ay Molla əmi, bəs axı yumurta ölkədən çıxdıqca bizdə qiymətlər qalxır.

-Əşi, qalxır, qalxır da. Guya nə qədər yumurta yeyirsiniz ki? Siz də ruslar qədər çox yesəydiniz, hə, deyərdim ki, bu ixrac camaat üçün qiymət qalxması ilə problem yaradacaq.

-Ay Molla əmi, siz dünyagörmüş adamsınız. Axı bizdə nə üçün yumurta belə az yeyilir?

-Bilirsiniz, ay bala, Rusiya soyuq olan yerdir. Yumurtadan ye, yeyə bildikcə. Azərbaycan isə isti ölkədir. Bir-iki yumurta artıq yeyirsən, təzyiqin qalxır. Səbəb olaraq yalnız bunu görürəm. Məsləhət bilirəm ki, yumurta yeməyin. Nə qədər az yesəniz, bir o qədər yaxşıdır.

-Hə, bax, bu bizim ağlımıza heç gəlməmişdi. Anladıq, Molla əmi, çox sağ olun.

***Mətanət Məmmədova***

# Leonid Slutski: "Azərbaycan Rusiyanın dünyada ən etibarlı tərəfdaşlarından biridir"

**Azərbaycan Rusiyanın ən etibarlı tərəfdaşlarından biridir. Rusiya Liberal Demokrat Partiyasının sədri, Rusiya Dövlət Dumasının Beynəlxalq Əlaqələr Komitəsinin rəhbəri Leonid Slutski bunu "Moskva-Baku" portalına şərhində MDB-nin dəyişən dünyada perspektivləri və əhəmiyyəti ilə bağlı sualı cavablandırarkən bildirib. Partiya sədri Rusiya-Azərbaycan münasibətlərini MDB məkanında sabitliyi qoruyan amillərdən biri kimi qiymətləndirib.**





"Azərbaycan və bu günlərdə ad günü münasibətilə təbrik etdiyimiz Azərbaycan Prezidenti İlham Əliyev Rusiyanın postsovet məkanında, dünyada ən etibarlı tərəfdaşlarından biridir. Ticarət-iqtisadi dövriyyəmiz artır, bütün sahələrdə qarşılıqlı əlaqələr artır. Hətta regional siyasətin həssas məsələlərində belə, rəsmi Bakı arxalana biləcəyiniz tərəfdaş kimi özünü göstərir.

Bütövlükdə MDB-yə gəlincə, Alma-Ata Bəyannaməsi imzalanandan bəri MDB müxtəlif eniş-yoxuşlar yaşayıb, lakin bu gün biz başa düşürük: postsovet məkanında bu gün qarşılıqlı əlaqələrimizi artırmaq, əməkdaşlıq və tərəfdaşlıq istəyini nümayiş etdirən ölkələr var. Bununla yanaşı, coğrafi, tarixi, mədəni cəhətdən bir-birimizdən uzaqlaşmaq bizim üçün çətindir. Əminəm ki, MDB gələcəyə hesablanmış strukturdur. MDB-nin gələcəyini dəfn etmək, onun hansısa başqa strukturlarla əvəzlənəcəyini ehtimal etmək hələ tezdir. Siz nəyinsə adını dəyişə bilərsiniz, lakin onlar eyni şeyi edəcəklər. Ona görə də Müstəqil Dövlətlər Birliyi ilə qarşılıqlı olaraq nəsə uydurmağa ehtiyac yoxdur. Əminəm ki, bir çox əsas məsələlərə Avrasiya İqtisadi İttifaqı kimi inteqrasiya bloklarının saxlanılması da daxildir.

Təhlükəsizliyə, təhsil, elm və bir çox digər istiqamətlərdə qarşılıqlı fəaliyyətin əsas sahələrinə gəldikdə, hesab edirəm ki, biz əməkdaşlığı davam etdirməliyik. MDB bu gün böyük bir məkandır. MDB, Afrika qitəsi ölkələri, Latın Amerikası və Asiya-Sakit Okean regionu ölkələrinin əhəmiyyətli bir hissəsi Rusiyaya bir növ nüvə, ağırlıq mərkəzi kimi cəlb olunur. Bunlar bu gün birqütblü dünya nizamı konsepsiyasına qarşı çıxan ölkələrdir. Hər bir ölkə, onun zəngin tarixi, adət-ənənələri, mədəniyyəti, milli dili, dini və s. hər bir kiçik ölkə və kiçik xalq üçün XXI əsrin yeni çoxqütblü dünya memarlığında ayrıca təsir qütbünə çevrilməlidir.

Bəzi məsələlərin, o cümlədən MDB məkanında infrastruktur əhəmiyyətli layihələrin istədiyimizdən ləng getməsinə baxmayaraq, müxtəlif layihə və proqramlarda qarşılıqlı fəaliyyət yolu ilə çoxqütblü dünya düzəninə dəstək olaraq, biz 10 illik yubileydə əmin olduq ki, Birlik ölməkdə olan təşkilat deyil, çox lazımlı bir əməkdaşlıq platformasıdır. Biz qonşularımızla mümkün qədər sıx əlaqə saxlamalıyıq. Fərqli sürətlərə və müəyyən tapşırıqları bir qədər fərqli başa düşməyə malik olduğumuz məqamlara gəlincə, biz bunun üçün çalışacağıq, o cümlədən Parlamentlərarası Assambleya vasitəsilə", - Slutski bildirib.

## Rusiyanı qonşularına qarşı qoymaq cəhdləri haqqında

Slutskinin sözlərinə görə, mübahisə yaratmaq üçün Rusiyanı kiməsə qarşı itələmək cəhdləri çox olub. "Hələ ki, onların heç biri uğur qazanmayıb. Başqa hallar da var- o zaman ki, bəzi ölkələr,- mütləq postsovet məkanında olması deyil,- özlərini tam konstruktiv aparmırlar. Amma bunlar müvəqqəti hallardır, çünki sonda hər şey danışıqlar masası arxasında həll olunur. Və o formatlara daxil olan platformalardan birinin iclası bu günlərdə baş tutacaq. Odur ki, bunu kiməsə zorla çatdırmağa ehtiyac yoxdur. Sağlam düşüncə və bizimlə konstruktiv qarşılıqlı əlaqədə olmaq arzusu göstərən biri ilə həmişə razılığa gələ biləcəyik.

Bu gün Avropa ölkələri tez başa düşürlər ki, onların Avropa sivilizasiyasının çoxəsrlik mədəni dəyərlərinə xitab edən uzaq Qərbdən (Amerikadan- red.) diktə edilmiş siyasət yox, öz siyasətləri olmalıdır. Eyni şey qonşu ölkələrə də aiddir. Bəli, qığılcımlar atılır. Amma biz özümüzü heç kimə qarşı qoymağa icazə verməyəcəyik. İstənilən vəziyyətdə, nə qədər problemli olsa da, bizi sağlam düşüncəyə və konstruktiv əməkdaşlığa aparacaq istinad nöqtələrini tapacağıq", - Slutski bildirib.

***Tərcümə - Elçin Bayramlı***

# Ermənistan Rusiya əleyhinə sanksiyalara qoşularsa...

*Erməni nəşri: "Qərb Ermənistana məsləhət verməkdən çəkinmir, onlardan biri də anti-Rusiya sanksiyalarına qoşulmaqdır"*

**Ermənistanda dərc olunan ”Gündəm-fakt” nəşri ölkənin Rusiya əleyhinə tətbiq olunacaq növbəti sanksiyalara qoşulacağı halda hansı problemlərlə üzləşə biləcəyi ehtimalları barədə yazıb.**






”BVF-nin məlumatına görə, Ukraynada başlayan hərbi əməliyyatlar fonunda Qərbin Rusiyaya tətbiq etdiyi sanksiyalara və iqtisadi qarşıdurmaya baxmayaraq, Moskva çox da zərərə düşməyib. Avropa iqtisadiyyatı tətbiq etdiyi sanksiyalardan gözləniləndən daha çox zərər çəkib”, - yazan erməni nəşri paralel olaraq Yaponiyanın əsas analitik mərkəzlərindən birinin qeydlərinə də toxunub: ”Analitik mərkəz proqnoz verib ki, sanksiyalara baxmayaraq, Rusiya enerji daşıyıcılarının ixracından əvvəlkindən daha çox gəlir əldə edir. Əvvəllər Qərb bazarına enerji ixracının üçdəkisi indi Asiya və Yaxın Şərqə gedir”.






”Bloomberg-in məlumatına görə, Avrozona iqtisadiyyatının yaxın 12 ayda tarixi tənəzzülə uğraması ehtimalı indi 50%-ə yaxınlaşır (45%-dən yuxarı). Ukrayna böhranından əvvəl bu ehtimal 20%, yay sorğusu zamanı isə 30% idi. Avropa Rusiyadan idxal olunan ucuz yanacaqdan və Belarusdan gətirilən kaliumdan imtina etdikdən sonra Avropada gübrə istehsalı, sadəcə, dayanıb”, - deyə erməni nəşri əlavə edib.




”Gündəm-fakt” əlavə edib: ”Ümumilikdə 50-dən çox istehsalat Avropanın qəbul etdiyi sanksiya siyasətinin qurbanı olub və bu da, öz növbəsində, artıq 2024-cü ildə avropalıların məhsul yetişdirməsində problem yaşayacaqları deməkdir. Avropada yaranmış bu vəziyyət, hətta sənayesizləşdirilməni sürətləndirəcək. Maraqlıdır ki, bütün bunlardan sonra öz səhvlərindən əziyyət çəkən Qərb Ermənistana məsləhət verməkdən çəkinmir, onlardan biri də anti-Rusiya sanksiyalarına qoşulmaqdır. Aydındır ki, Qərb bu işdə öz maraqlarını güdür və Ermənistanın iqtisadi çöküşlə üzləşə biləcəyi Qərb tərəfdaşları üçün o qədər də maraqlı deyil”.

Bu arada xatırladaq ki, bir neçə gün bundan əvvəl Ermənistanın 2024-cü ildə Rusiyadan güzəştli qiymətlərlə qaz almağa davam edəcəyi bildirilmişdi.

Nəşr yazır: ”Hazırda Ermənistan üçün sərhəddə Rusiya qazının qiyməti 1000 kubmetr üçün 165 dollar təşkil edir. Müqayisə üçün qeyd edək ki, məsələn, Azərbaycan öz müttəfiqi Türkiyəyə qazı təqribən 250 dollara satır, İran Türkiyəyə qazı 400 dollara satır və Ermənistan hakimiyyəti Rusiya qazını Azərbaycan və ya İran qazı ilə əvəz etməyə ümid edirsə, üç dəfə və ya daha çox ödəməyə hazır olmalıdır.

Əgər Ermənistan güzəştli şərtlərlə Rusiyadan qaz almağı dayandırsa, bu, birbaşa bütün sektorlara: nəqliyyat vasitələrinə, kənd təsərrüfatına, istehsala, elektrik enerjisinin qiymətlərinə təsir edəcək, çünki Ermənistanda elektrik enerjisinin 30-35 faizi Rusiyadan gələn qazla işləyən istilik stansiyalarında istehsal olunur. Başqa sözlə, qiymət artımı Ermənistanın bütün iqtisadiyyatına fəlakətli şəkildə yayılacaq ki, bu da bütün məhsulların qiymətinin artmasına səbəb olacaq. İqtisadçılar Aİ-dən çıxacağı təqdirdə Ermənistanın yalnız qaz təchizatına ildə 360 milyon dollar xərcləyəcəyi və bunun ölkəmiz üçün böyük yük olacağı qənaətindədir. Ona görə də indiki halda Qərbin səhvlərindən dərs çıxarmalı, ayıq-sayıq olmalı və enerji sistemimizin təhlükəsizlik mövqelərini gücləndirməliyik ki, ölkəmiz artıq problemlərlə üzləşməsin”.

***Afət Tahirqızı***



Mətanət MƏMMƏDOVA

# DİQQƏT: ailə dəyərlərimiz əldən gedir

**Görəsən məsləhət, tövsiyə nə vaxtdan Azərbaycan cəmiyyətində zorakılıq hesab olunub? Bunu bilən varmı? Əgər yoxsa, nə üçün Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində bu fikirdədirlər? Komitənin Hüquqi-təminat şöbəsinin müdiri Taliyə İbrahimova ”Məişət zorakılığının qarşısının alınması haqqında” qanuna təklif edilən dəyişikliklə gələcəkdə qayınana, qayınata kənardan ailəyə müdaxilə edərsə, bunun məişət zorakılığı hesab olunacağını qeyd edir.**

Biz ailələrimizi bu cürmü qoruyacağıq? Yoxsa bu addımla boşanmalara görə od tutub yanan statistik göstəriciləri söndürəcəyik? Bu, boşanmaların qarşısını almaq üçün çıxış yoludurmu, yoxsa ailə dəyərlərinə çalınan son balta?

Azərbaycan cəmiyyətində kim şahidi olmayıb ki, minlərlə gənc ailənin təməlinin möhkəmlənməsində, dayanıqlığının artmasında qayınana-qayınataların böyük rolu olub. Vaxt olub ki, gənc-cılğın olmuşuq, ağıllı düşünə bilməmişik, ailəmizin taleyi, necə deyərlər, bir tükdən asılı qalıb. Belə vaxtlarda böyüklərimizin öyüd-nəsihəti ilə hərəkət etmişik. Sonda isə heç də peşman olmamışıq. Şükür etmişik ki, nə yaxşı onlar varmış, bizə o dəyərli məsləhətləri veriblər, biz də ailəmizi dağıtmamışıq.

Biz nədənsə məişət zorakılığı ilə müdaxilə etməyin lüğəti mənasını qarışıq salırıq. Ağsaqqal, ağbirçək öyüdü, məsləhəti, tərəfləri sülhə çağırmaq, görəsən nə üçün məişət zorakılığı sayılır? Belə çıxır ki, ailəmizdə bir problem baş verərsə, qayınatamız, qayınanamız ”ay bala, gəlin bir oturun, görək dərdiniz nədir?” deyərsə, biz dərhal onları məhkəməyə verəcəyik? Həyat yoldaşımızın ata-anasını, övladımızın nənə-babasını, məhkəməyə verəndən sonra hansı ailə dəyərlərinin əlimizdə qalmasından söhbət gedə bilər? Yaxşı, verdik məhkəməyə, sonra da ailə münasibətlərimiz bərpa olundu. Bu zaman hansı üzlə o insanların üzünə baxa biləcəyik. Və yaxud da belə ailələrdə böyüyən uşaqların tərbiyəsində bu hansı rola malik olacaqdır.

Normal, ağlı başında olan ata-ana heç vaxt övladının ailəsinin dağılmasına qəti şəkildə razı ola bilməz. Əgər hər hansı bir ana-qayınana övladının ailəsinin dağılması üçün müdaxilə edirsə, deməli, ən birinci onun psixoloji vəziyyətində problem var. Bu da olar yüz ailədən 2-3-də. Və yaxud da gəlini oğluna qısqanan analar olur ki, bu da təbii ki, sağlamlıq problemlərindən, düşüncə yoxsulluğundan irəli gəlir. Bunu da yəqin ailə üzvləri hiss edir, bilir və buna görə də hərəkət edirlər.

Bu gün televiziya kanallarında da gəlin-qayınana münasibətləri tez-tez müzakirə edilir. Qızlarımıza qayınana ilə bilikdə yaşamamaq tövsiyə olunur. Bütün bunlar gənclərimizin beynində qorxunc qayınana obrazını yaradır. Və özümüz ya bilə-bilə, ya da bilməyərək cəmiyyətimizə ağır zərbə endirmiş oluruq. Heç bir təcrübəsi olmayan qızları ailə qurmağa qorxuduruq. Onların gələcək gücünü əlindən alırıq. Hansı ki, həmin verilişlərdə söhbətimizi elə istiqamətdə qura bilərik ki, bu söhbətlər qızlarımız üçün ailə dəyərlərinin nə qədər qiymətli olduğunu aşılayar və çox təbii ki, bütün bunlar da yeni qurulan ailələrə dəstək olar.

Biz nə edirik? Qayınananı əjdaha simasında təqdim edirik. Böyüklərin müdaxiləsini zorakılıq adlandırıb gənclərin əlinə əsas veririk ki, dağıt ailə dəyərlərini. Ağı qaradan götür, ən yaxın qohumlarını məhkəməyə ver, biabırçılıq yarat. Hələ təsdiq olunmamış bu qanun layihəsini toy-bayram edənlər də var. Sanki bəzi gəlinlər bununla qayınana üzərində bir qələbə çalmış kimi hiss edirlər özlərini. Sosial şəbəkələrdə bu, müzakirə obyekti olub.

Biz isə bundan çox utanırıq, utanırıq ona görə ki, bizim ailələrin böyükləri bu gün müzakirə mövzusuna çevrilib. Onların öyüd-nəsihət, məsləhət vermək hüquqları əlindən alınır.

Və çox ümidvarıq ki, bu layihə cəmiyyət tərəfindən əsla bəyənilməz və qəbul olunmaz. Çünki Qanuna təklif olunan layihə- ”qayınana, qayınata kənardan ailəyə müdaxilə edərsə, bu, məişət zorakılığı hesab olunacaq” müddəası qəbahətdir, tamamilə yanlış qurulmuş cümlədir.

Ailələrin dağılmasının, boşanmaların sayının artmasının qarşısını almaq üçün adıçəkilən komitə daha sanballı bir yol axtarıb tapmalıdır. Oğulu ata-anası, qızı qayınana-qayınatası ilə üz-üzə qoymaq çıxış yolu deyil.

# Əli Kərimli boykot pərdəsi altında qorxaqlığını gizlətməyə çalışır



Azərbaycan sivil, demokratik dünyanın ayrılmaz hissəsi olaraq sosial-iqtisadi nailiyyətləri, 44 günlük Vətən Müharibəsində qazandığı möhtəşəm qələbələri, cəmiyyət həyatında əldə etdiyi demokratik təsisatları və digər uğurları ilə dünyanın aparıcı dövlətləri sırasında özünə layiqli yer tutduğunu göstərir. Bu nailiyyətlərlə təkcə Azərbaycan xalqı deyil dost, qardaş millətlər də sevinir və fəxr edirlər. Təbii ki, uğurlar davamlıdır. Çünki Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti, Yenilməz Sərkərdə İlham Əliyevin apardığı siyasət dövlətin gücünün möhtəşəm olmasına, xalqın sosial-rifah halının daha da yaxşılaşmasına hesablanıb. Təəssüflər olsun ki, sapı özümüzdən olan baltalar xarici məkrli qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanıb, böyük uğurlara, möhtəşəm qələbələrə kölgə salmağa çalışırlar. Hətta AXCP sədri Əli Kərimi beynəlxalq təşkilatlara yazılı şəkildə müraciət edərək Azərbaycan dövlətlərinə qarşı iqtisadi sanksiyaların tətbiq olunmasını xahiş edir.

### Əli Kərimli: "44 günlük Vətən Müharibəsində qazanılan qələbə Sarkisyan-Koçaryan cütlüyünün Qarabağı və ətraf rayonları işğal etmələrindən artıq ola bilməz"

AXCP və Milli Şura adından ABŞ Konqresinə, Fransa Assambleyasına, Almaniya Bundestaqına, Avropa Parlamentinə məktublar ünvanlayan Əli Kərimli və Cəmil Həsənli onlardan Azərbaycanın beynəlxalq təşkilatlarda səsvermə hüququnun məhdudlaşdırılmasını tələb edirlər. Fikir verin, dağıdıcı cütlük tələb edirlər. Adətən, xahişlər və yalvarışlarla ağalarına üz tutan C.Həsənli və Ə.Kərimli bu dəfə tələblə çıxış edirlər. Onları cəsarətləndirən nədir? Əksər hallarda ağaları qarşısında müti və zəif durumda olan məxluqlar nədən gözlənilmədən mövqelərini dəyişib, qətiyyət nümayiş etdirirlər? Birmənalı şəkildə demək olar ki, ortada razılaşma var. Yəni, Ə.Kərimliyə və C.Həsənliyə himayədarlıq edən xarici dairələr belə çağırışın daha məqbul olduğunu qeyd ediblər. Məhz bu baxımdan, müraciətlərini tələbnamə şəkilində ünvanlayıblar. Beynəlxalq təşkilatlara ünvanlanan separatçı müraciətləri fonunda Ə.Kərimli daxili və xarici qüvvələrə xoş gəlmək üçün erməni revanşistlərsayağı fikirlər də səsləndirir. Utanıb çəkinmədən internet TV-lərin birinə verdiyi açıqlamasında deyir ki, 44 günlük Vətən Müharibəsində qazanılan qələbə Sarkisyan-Koçaryan cütlüyünün Qarabağı və ətraf rayonları işğal etmələrindən artıq ola bilməz. Bununla da açıq şəkildə Qarabağın azadlığa qovuşmasından narahatlıq keçirdiyini nümayiş etdirir. Həm də təsdiq olunur ki, mübaliğəsiz bu məxluq ya erməni kökənlidir, ya da erməni lobbisindən maddi və mənəvi dəstək alır. Belə məxluqun cəmiyyət arasında görünməsi elə cəmiyyətin özünə hörmətsizlikdir. Bu baxımdan, onun islah olunması üçün ciddi şəkildə cəzalandırılmasına zərurət var. Xalqın qələbə sevincinə kölgə salmaq bağışlanmaz günahdır və cəzasız qala bilməz.

### Xalq "boykot"çuları boykot edəcək

Xalqımız növbəti Zəfər seçkisi ərəfəsində olduğu bu məqamda dağıdıcı ünsürlərin fəallaşması təbii ki, təsadüfi ola bilməz. Onların əsas sifarişli hədəfləri və məqsədləri cəmiyyətdə seçki əhval-ruhiyyəsinə və fəallığına zərər verməkdir. Lakin inandırıcı deyil ki, bəd niyyətlərini reallaşdıra bilsinlər. Çünki məsəl var deyərlər, "el gücü, sel gücüdür". Xalqın gücü, birliyi qarşısında çör-çöpün duruş gətirməsi mümkünsüzdür, özü də qalib xalqa. Ona görə də, dağıdıcı müxalif məxluqların hay-küyləri, təxribatçı əməlləri nəticəsiz qalacaq. Boykot çağırışları isə, ümumiyyətlə, baş tutmayacaq. Xalq hamılıqla 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkilərində əmin-amanlığa, sülhə və təhlükəsizliyə, iqtisadi, sosial inkişafa, bir sözlə, onlara möhtəşəm qələbələr bəxş edən Yenilməz Sərkərdə, Prezident İlham Əliyevə səs verəcəklər. Dövlətin inkişafı və gələcəyi yalnız Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasətə bağlıdır. Xalqın sosial cəhətdən təminatı, beynəlxalq aləmdə imicinin daha da möhkəmlənməsi Yenilməz Sərkərdə İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətdən asılıdır. Yəni, əminliklə və qətiyyətlə demək olar ki, Azərbaycan dövləti və xalqı 2024-cü ildən sonra da uğurlu inkişafını müdrik lider, Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirəcək.

### Boykot sifarişli təxribatdır

Hazırda 7 fevral 2024-cü ildə keçiriləcək növbədənkənar prezident seçkiləri ilə əlaqədar ölkəmizin ictimai-siyasi həyatında bir canlanma müşahidə olunur. Əhali arasında seçkilərlə bağlı qızğın müzakirələrin, diskussiyaların aparılması, müxtəlif siyasi qüvvələrin və müstəqil şəxslərin seçkiyə namizədlə qatılmaları onu təsdiq edir ki, cəmiyyət seçki prosesinə laqeyd deyil. Əksinə, seçkilərdə daha fəal iştirak etməklə Azərbaycanın demokratik seçki ənənəsinə öz töhfəsini verməyə çalışırlar. Yuxarıda qeyd etdiyimiz kimi, dağıdıcı müxalifət xalqın seçkiyə böyük coşqu ilə hazırlaşmasına qısqanclıqla yanaşır və prosesə cüzi də olsa zərər vurmağa çalışırlar. Ə.Kərimlinin və C.Həsənlinin cəmiyyəti icazəsiz aksiyalar keçirməklə təhdid etmələri və beynəlxalq təşkilatlar vasitəsi ilə xalqa hədə mesajı göndərməyə çalışmaları, məhz bəd niyyətlərini və məkrli planlarını reallaşdırmaq istəyindən irəli gəlir. Xüsusilə də, Serbiyada baş verən son hadisələr Azərbaycandakı dağıdıcı ünsürləri ölkədə qarşıdurma yaratmağa həvəsləndirib. Ə.Kərimli Sevinc Osmanqızının TV-sinə verdiyi açılmasında Serbiyada baş verən iğtişaşların Azərbaycan müxalifəti üçün yeni mübarizə əhval-ruhiyyəsi yaratdığını bildirib. Yəni, insan itkiləri, qarşıdurmaları Ə.Kərimli üçün siyasi maraqlarının təmin olunmasında əlverişli vasitə hesab olunur. Sabah ölkəmizdə insan itkiləri ilə müşahidə oluna biləcək qanlı hadisələr baş versə, bu, Ə.Kərimli və ətrafında olan trol dəstəsi üçün arzuolunan olay hesab olunacaq və vəziyyətdən bəhrələnməyə çalışacaqlar. Dəfələrlə dağıdıcı ünsürlər qarşıdurmalar yaratmaqla öz məkrli planlarını həyata keçirməyə çalışıblar. Lakin sonda xalq-hakimiyyət birliyi nəticəsində radikallar iflasa uğramış və ifşa edilərək əski mövqelərinə qayıdıblar. Yenə də əgər qarşıdurma yaratmağa cəhdlər göstərsələr, sərt şəkildə cəzalarını alacaqlar. Ölkəmizdə seçkidən kənar hər hansı qeyri-qanuni vasitələrlə nəyəsə nail olmaq mümkünsüzdür. Görünən isə ondan ibarətdir ki, dağıdıcı müxalifət seçki yarışında iştirak etməkdə istəkli deyil. Daha doğrusu, Ə.Kərimli seçkiyə qatılmağa qorxur. Ona görə də öz qorxaqlığını boykot pərdəsi altında gizlətməyə çalışır. Başa düşür ki, xalq onu və onun kimiləri qətiyyətlə rədd edir.

### Seçkilər yeni dövrün növbəti demokratik hadisəsi olacaq

Siyasi sabitliyi pozmaq və ölkənin daxili məsələlərinə müdaxilə etmək arzusunda olan xarici qüvvələr seçki prosesini təxribatlar üçün "universal" fürsət yaradan amil hesab edirlər. Bu baxımdan, Bakıdakı təmsilçiləri rolunda çıxış edən dağıdıcı müxalifətdən istifadə etməyə çalışırlar. Maddi maraq qarşılığında Ə.Kərimli, C.Həsənli, Arif Hacılı böyük həvəslə xarici maraqlı dairələrin sifarişlərinin icraçısı olurlar. Boykot qərarı və mitinqlərə çağırışlar da xarici dairələrin göstərişlərindən irəli gəlir. Təbii ki, dağıdıcı müxalifət icazəsiz aksiyalara çağırışlara və boykot qərarına cəmiyyətdən dəstək almayacaqlarını başa düşürlər, sadəcə, üzərlərinə öhdəliklər götürdüklərindən, sifarişlərdən imtina edə bilmirlər. Boykot pərdəsi altında cəmiyyətdə seçki ilə bağlı yalan məlumatlar, şər və böhtanlar yayırlar. Hesab edirlər ki, bununla ictimai rəydə şübhələr yarada biləcəklər. Lakin yenə də səhvlərə yol verirlər. Xalq artıq ağı qaradan seçməyi bacarır və kifayət qədər siyasi proseslərdən məlumatlıdır. Ona görə də, dağıdıcı müxalifətin yaydığı məlumatlar cəmiyyət tərəfindən dezinformasiya kimi dəyərləndiriləcək rədd edilir. Birmənalı mövqe isə ondan ibarətdir ki, xalq hamılıqla zəfər seçkisinə gedərək tarixi yaradan və yaşadan, möhtəşəm qələbələr fatehi, Yenilməz Sərkərdə İlham Əliyevə səs verəcək. Yolumuz Prezident İlham Əliyevin müəyyənləşdirdiyi yoldur - güclü və qüdrətli Azərbaycan uğrunda.

***İLHAM ƏLİYEV***

MÜNASİBƏT

## "Yaxın vaxtlarda Ağdam və ətrafında da abadlıq işləri həyata keçiriləcək"



"Ümumilikdə Ağdam şəhəri yenidən salınacaq". Bu sözləri SİA-ya açıqlamasında politoloq Azad Məsiyev deyib. O, sözlərinə belə davam edib: "30 ilə yaxındır ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisini işğal etmişdi. İşğal dövründə bütün rayonlar, kəndlər talanmışdı, daşı - daş üstündə qoymamışdılar. Bütün infrastruktur dağıdılmışdı. 44 günlük müharibədən sonra Azərbaycan öz ərazilərini azad etdikdən sonra yenidənqurma prosesi başladı. Təbiidir ki, qaçqınların geri qayıtması, onların rahatlığı üçün infrastruktur yaradılmalı idi.

İşğaldan azad edilən bütün rayonlarda yenidənqurma işləri başladı, tikinti işləri getdi, yeni məktəblərin, iş yerlərinin, xəstəxanaların tikilməsi prosesi gedirdi. Bu proses pilləvari olur. Birdən-birə bütün problemləri həll etmək qeyri-mümkündür. Elə şərait yaradılmışdı ki, əhalinin yaşaması üçün bir dənə də olsun, yaşayış binası qalmamışdı. Ağdam rayonunda da yenidənqurma işləri başlayıb. Xüsusilə də, yarımstansiya strateji obyektini deyə bilərəm. İstənilən yerin, bölgənin yenidən qurulması, infrastrukturun sürətlə yaranmasını inkişaf etdirmək üçün elektrik enerjisinə ehtiyac var. Bu baxımdan yarımstansiyanın açılması ilə təkcə Ağdam yox, Ağdamın yaxınlığında olan digər rayonlara da elektrik enerjisinin verilməsi nəzərdə tutulur".

Azad Məsiyev sözlərinə belə davam edib: "Təbiidir ki, elektrik enerjisi olmayan yerdə abadlıq işi aparılması real deyil. Ona görə birinci elektrik yarımstansiyasının açılması, bölgəni elektriklə təmin etmək və tikinti işlərinin, şəhərciklərin salınması prosesi başlayacaqdır. İşğaldan azad olunan bütün bölgələrdə abadlıq işləri gedir, Ağdam və ətrafında olan kəndlərdə də bu proseslər davam edəcək. Ümumilikdə Ağdam şəhəri yenidən salınacaq. Orada yaşayış binalarının tikilməsi, xəstəxanaların, məktəblərin tikilməsi, eyni zamanda yaşıllığın salınması kimi proyektlər nəzərdə tutulur. Bu cür addımlar prezidentin daxili siyasətinin tərkib hissəsidir və Qarabağa göstərdiyi diqqətin bariz nümunəsidir. Qeyd etmək istəyirəm ki, işğaldan azad olunan bütün rayonlar əvvəlkindən də firavan, şəraitli olacaq. Əhalinin geri qayıtması üçün infrastruktur yaxşı olmalıdır. Prezidentin də məmurlar qarşısında qoyduğu əsas tələblərdən biri də odur ki, əhali üçün hər şey yüksək səviyyədə olsun. Yaxın vaxtlarda Ağdam və ətrafında da abadlıq işləri həyata keçiriləcək".

***Söylü Ağazadə***

## "Nar" Azərbaycan Voleybol Federasiyasının rəsmi tərəfdaşıdır

"Nar" ölkədə voleybolun inkişafına və təbliğinə mühüm töhfə məqsədi ilə Azərbaycan Voleybol Federasiyasının (AVF) rəsmi tərəfdaşı oldu. Əməkdaşlıq çərçivəsində mobil operator qadınlar və kişilər arasında yerli çempionatın keçirilməsinə dəstək göstərəcək. "Nar"ın dəstəyi ilə 2023-2024-cü ilin voleybol mövsümü artıq start götürüb. Voleybol həvəskarlarına ölkə çempionatının oyunları izləmək və dəstək olmaq üçün giriş sərbəstdir. "Nar" Azərbaycan Voleybol Çempionatında öz komandasını təmsil edən bütün voleybolçularımıza uğurlar arzu edir. Voleybol idman növünü yerli və beynəlxalq səviyyədə təbliğ etmək məqsədi ilə "Nar" 2017-ci ildə qadın voleybolçular arasında Avropa çempionatının rəsmi telekommunikasiya tərəfdaşı kimi çıxış edib.




Korporativ sosial məsuliyyət (KSM) strategiyasına uyğun olaraq "Nar" ölkədə sağlam həyat tərzini təbliğ edərək gənclər arasında voleybol daxil olmaqla, müxtəlif idman növlərinə marağın artmasını dəstəkləyir. Mobil operatorun gerçəkləşdirdiyi KSM layihələri haqqında nar.az/projects səhifəsindən məlumat əldə edəbilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Aqrar sığorta: **Əkdiyini biçmək üçün təminat**

1200 manat dəyərində məhsul verən 1 hektar taxıl sahəsinin sığortalanması fermerlərə 6-12 manata başa gəlir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb*

**Kəndlinin alın təri ilə suvarılan, zəhməti ilə böyüyən, əməyi ilə biçilən məhsulların bir də biçilməməsi halı var. Çünki kənd təsərrüfatı çoxsaylı və müxtəlif risklərin olduğu sahədir. Kəndli əkdiyini həmişə biçə bilmir, çünki əkinlərin məhsuldarlığı və fermerlərin gəlirləri böyük həcmdə hava şəraitindən asılıdır. Leysan, dolu, şaxta kimi təbiət hadisələrində kəndlinin əkini də təhlükədə olur.**





## Kəndliyə ən çox dolu zərər verir

Müşahidələr göstərir ki, bütün dövrlərdə əkinçiliyə ən böyük zərəri dolu vurub.Dolu əkin sahələri ilə yanaşı, kolları, tingləri, ağacların budaqlarını məhv edir, hətta bəzən dolu yağması nəticəsində quşlar da tələf olurlar. Evlərin damı, avtomobillər belə doludan ciddi formada zərər görə bilir. Dolu yağması əkinlərə təkcə fiziki zərər vurmur, dolunun bitkinin qabığını zədələməsi nəticəsində, burada yeni xəstəliklər, o cümlədən göbələk xəstəlikləri ortaya çıxır və əkinə düzəlməyən zərər dəyir. Beləliklə, kəndlinin min bir əziyyətlə böyütməyə çalışdığı məhsulun 70-100%-i itirilir.

Qeyd edək ki, dolu ən çətin proqnoz edilən hadisədir. Hansı əraziyə dolu düşüb-düşməyəcəyini əvvəlcədən proqnozlaşdırmaq müşküldü, bəzən hətta dəqiq proqnoz olduqda belə, bu hadisənin qarşısını almaq faktiki olaraq mümkünsüzdür. Təb bizim ölkədə deyil, dünyada kənd təsərrüfatı sektorunda dolu yağmasının böyük zərərləri ilə bağlı misallar minlərlədir. 2010-cu ildə isə Kanadanın Alberta vilayətində dolu 90 min hektar əkin sahəsini məhv edib, dəyən zərər 18,5 milyon dollar təşkil edib. 2013-cü ildə ABŞ-ın Montana ştatında dolu yağması kənd təsərrüfatı sahəsinə 14 milyon dollarlıq zərər vurub. Bu həmin ştatda 98 illik doludan sığorta proqramı üzrə qeydə alınan ən böyük ödəniş olub. 2015-ci ildə Avstraliyada dolu yağması bitkiçilik və əkin sahələrinə 250 milyon dollar zərər vurub. Bu hadisə nəticəsində təkcə qida bitkiləri deyil, həm də böyük pambıq sahələri məhv olub.

## Azərbaycanda doludan qorunmaq kəndliyə neçəyə başa gəlir?

Azərbaycanda dövlət dəstəyi ilə yeni tətbiq edilən aqrar sığorta mexanizmi əkin sahələrini doludan da sığortalamağa imkan verir. Orta rəqəmlərə əsasən, 1200 manatlıq taxıl yığılan 1 hektar sahənin sığortalanması ölkənin əksər ərazilərində fermerlərə 6-12 manata başa gəlir. Sığortalanan təsərrüfatlarda dolu vurma və digər sığorta hadisəsi baş verdikdə 10% azadolma məbləği sıxılaraq zərərin 90% həcmində sığorta ödənişi edilir.






Bəzi hallarda dolu yağması məhsulu məhv etməsə də, onun qabığına zərər vuraraq xarici görünüşünü korlayır. Nəticədə məhsul itirilməsə də, görünüşünü korlandığına görə, onun satışında problem yaranır, fermer onu qat-qat ucuz satmağa məcbur olur və böyük zərərə düşür. Azərbaycandakı aqrar sığorta ilə fermerlər öz məhsullarını bu riskdən də qoruya bilərlər. portağal, limon, naringi kimi meyvələri dolu vurması nəticəsində əmtəə görünüşünün itirilməsi və qiymətin aşağı düşməsi riskindən sığorta etmək olar. Bu zaman itirilən qiymət fərqinə görə Aqrar Sığorta Fondu tərəfindən sığorta ödənişi edilir. Bu sığorta tarifi məhsulun qiymətinin 1-2%-i arasında dəyişir, üstəlik sığorta haqqının yarısını da dövlət ödəyir.

Əvəzində fermerlər qiymətdə itirdikləri məbləğin 90%-ni ödəniş şəklində geri ala bilərlər. Məsələn, Lənkəranda məhsulunun ümumi qiyməti 25 min manat olan portağal bağını bu riskdən sığortalamaq üçün sığorta haqqı 260 manat təşkil edir. Fermer bu məbləğin yarısını - 130 manat ödəyir.

Sahəni dolu vurması nəticəsində portağalın qabağına dəyən zərər onun əmtəə görünüşünü korlayır və satışında poblem yaradır. Bunun nəticəsində, məsələn, kiloqramı 1 manat olan portağalın qiymət 50 qəpiyə enirsə, fermerin üzləşdiyi hər kiloqramda 50 qəpik, ümumi sahədən isə 12 500 manatlıq qiymət itkisi zərərinin 90%-i, yəni 11 250 manat kompensasiya edilir. Yəni Aqrar Sığorta Fondu ona bu məbləği ödəyir. Belə sığorta təkcə yerli bazara deyil, xaricə məhsul ixrac edən təsərrüfatlar üçün xüsusilə vacibdir və onları böyük itkilərdən qoruya bilər.

## Sığortalanmaq üçün nə etməli?

Sığorta müqaviləsi bağlamaq istəyən şəxsin təqdim etdiyi məlumatların doğruluğu həmin gün ərzində vasitəçi aqrar sığortaçı tərəfindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində (EKTIS) olan məlumatlarla müqayisə edilərək yoxlanılır. EKTİS-də qeydiyyatdan keçdikdən sonra müvafiq sığorta şirkətinə sığortalanmaqla bağlı müraciət edilməlidir. İdarəedici qurumun məsul əməkdaşı ona təqdim edildiyi sənədlər və məlumatlar əsasında müqavilə bağlanması barədə qərarını Fondla razılaşdırmalıdır.

Müqavilənin bağlanmasına razılıq verildiyi halda müstəqil ekspert tərəfindən sığorta predmetinə baxış keçirilir. İdarəedici qurumun məsul əməkdaşı müstəqil ekspert tərəfindən göndərilmiş məlumat və sənədləri təhlil edərək sığorta müqaviləsinin bağlanılıb-bağlanılmaması barədə qərar qəbul edir. Sığorta risklərini və zərərləri qiymətləndirən, habelə sığorta hadisələrini araşdıran fiziki şəxs müstəqil ekspert hesab edilir. Müstəqil ekspert olmaq üçün aqrar sığorta fəaliyyəti üzrə müvafiq icra hakimiyyəti orqanının təşkil etdiyi imtahandan müvəffəqiyyətlə keçməli, müvafiq sertifikat almalı və reyestrə daxil edilməlidir.

Sığorta hadisələri barədə məlumatı hadisənin baş vermə tarixindən 24 saat ərzində vasitəçi aqrar sığortaçıya və ya idarəedici quruma, eyni zamanda qanunvericiliyə uyğun olaraq, həmin hadisə barədə məlumatlandırılmalı olan digər səlahiyyətli dövlət orqanlarına məlumat verməlidir. Zərərin araşdırılması və qiymətləndirilməsi üçün müstəqil ekspert cəlb olunur. Müstəqil ekspert tərəfindən təqdim olunan rəy və fotoşəkillər əsasında ödəniş və ya imtina edilir.



## Külək, leysan, şaxta, sel

Məlumat üçün qeyd edək ki, Aqrar Sığorta Fondu tərəfindən qeydə alınmış sığorta hadisələri lokal xarakter daşımır, ölkənin bütün ərazisini əhatə edir və müxtəlif dönəmlərdə olur. Bu ilin fevral və mart ayında güclü küləklər məhz Qobustan, Şəki, Zaqatala bölgəsində sığorta hadisələri yaradıb, may ayı ərzində güclü leysan, daşqınlar Aran bölgəsində, eləcə də cənub bölgəsində sığorta hadisələrinə səbəb olub.

Ümumiyyətlə, ölkəmizdə baş vermiş sığorta hadisələrinin 47 faizi güclü küləklər, fırtına, qasırğa nəticəsində yaranmış itkilərdir, 21 faizi sel, daşqınlar, yağış, güclü leysanlar nəticəsində yaranmış yağışlar, 11 faizi isə dolu ilə müşahidə edilən digər təbiət hadisələridir. Digər şaxtavurma hadisələri var, üçüncü şəxslərin hərəkətləridir. Üçüncü şəxslərin hərəkəti dedikdə - aqrar sığortalının, yəni fermerin özü və ailə üzvləri istisna olmaqla, digər şəxslərin hərəkət və yaxud hərəkətsizliyi nəticəsində dəyən zərərlər başa düşülür. Ailə üzvləri- valideynlər, uşaqlar, həyat yoldaşıdır. Yəni, fermerin özü və ya bu şəxslərdən başqa qalan hər kəs 3-cü şəxs sayılır və onun təsərrüfata vurduğu zərər sığorta ilə qarşılanır.

Aqrar sığorta fermerin təminatıdır. Bütün risklərə rəğmən məhsulunu itirməyəcəyinin qarantıdır. Odur ki, sığortalanmış əkin sahələrindan fayda, qazanc götürə bilmək üçün soğorta haqqında düşünməyə dəyər.

***Lalə Mehralı***

SƏS
27 dekabr
2023-cü il


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


MÜNASİBƏT

# Bakıda sərnişin sıxlığının qarşısını necə almaq olar?



**"XX əsrin əvvəlindən etibarən bütün dünyada gedən proseslər Azərbaycana da təsir etdi". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Mir Cəlal Paşayev adına Milli Virtual Kitabxananın təsisçisi, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.**

Ekspert sözlərinə belə davam edib: "İstər urbanizasiya, şəhərləşmə, istər qloballaşma Azərbaycanın kiçik qəsəbələrindən tutmuş orta tutumlu şəhərlərində, o cümlədən, iri meqapolis sayılan Sumqayıt, Gəncə, paytaxt Bakıda müəyyən problemləri ortaya qoydu. Şəhərləşmə, nəqliyyat infrastrukturu, paytaxtın planlı küçələri, metro, trolleybus, tramvay, avtobus, marşrut taksiləri, elektrik qatarı kimi çox maraqlı nəqliyyat növlərinin yaranmasına səbəb oldu. Hələ əvvəllər Bakıda bizim bilmədiyimiz "Azadlıq Meydanı"ndan vertolyot qalxırdı. Xəzər dənizində də sərnişin gəmiləri var idi. Milyonlarla insan il ərzində şəhərin müxtəlif yerlərinə, Azərbaycanın müxtəlif bölgələrinə səfər edirdi. Bu, getdikcə böyük problemə çevrilməli idi. Bunu paytaxtımızda artıq müşahidə edirik.

Nəqliyyatın tənzimlənməsi, planlaşdırılması, optimallaşdırılması və sərnişinyönümlü olması ilə əlaqədar həm dünyanın ən aparıcı ölkələrində, meqapolislərində, həm də Azərbaycanda müxtəlif vaxtlarda cürbəcür islahatlar olub. Azərbaycan həmin maraqlı ölkələrdəndir ki, funikulyoru var. Azərbaycanda nəqliyyatın şaxələnməsi, sistemləşdirilməsi hər zaman ehtiyac olunan bir proses kimi bizim şəhərləşmə mədəniyyətimizin bir hissəsinə çevrilmişdir. Son illər Bakının dünyanın aparıcı beyin və iqtisadiyyat mərkəzlərindən, geosiyasi nöqtələrindən birinə çevrilməsi ona gətirib çıxardı ki, ölkəmizin paytaxtına bölgələrdən, hətta yaxın xarici ölkələrdən - Türkiyə, Rusiya, Ukrayna, Gürcüstan və İran - Cənubi Azərbaycan, Pakistan, Əfqanistan kimi və Avropa ölkələrindən bu prosesə qoşulanlar oldu. Çoxsaylı əhali, turistlər, işləməyə, yaşamağa gələn əcnəbiləri də saysaq, şəhər sürətlə inkişaf etdi. Amma şəhərimizin həm torpaq problemi, həm də qədim şəhər olduğu üçün planlaşdırılmamış küçələri var idi. Bu küçələr isə bu qədər əhalini daşımaq üçün heç cür nəqliyyat sıxlığını aradan qaldıra bilmir. Ona görə də son vaxtlar Bakıda həm də ictimai nəqliyyat, avtobuslar üçün xüsusi xətlər çəkilib, yolların bir hissəsi onlara verilib və digər fərdi nəqliyyata isə günün müxtəlif saatlarında oraya daxil olmaq qadağan edilib. Bu nəqliyyatda sıxlığın aradan qaldırılması, tıxacların yaranmaması üçün düşünülmüş, atılmış addımdır. Hələ ki, bunun effektivliyini görmürük. 50-ci illərdən sonra Azərbaycanda metro tikintisi sürətlə getdi.

Eyni zamanda, şəhərin kənarlarına, kəndlərə elektrik qatarları işləməyə başladı. Son vaxtlar isə metro ilə, elektrik qatarları ilə yanaşı, avtobus və aradan çıxan trolleybus, tramvayları da yada salsaq, marşrut avtobusları, ictimai nəqliyyatın ən çevik növü olan taksilər, bu sıxlığı aradan qaldırmaq üçün həm dövlət, həm sahibkarlar tərəfindən görülən işlər, müxtəlif statistik məlumatlara görə 3 və 5 milyon olan nəqliyyatın sıxlıq problemini aradan qaldıra bilmədi. Hamı bu problemi görür, təkliflər var. Ölkənin müxtəlif düşüncə adamları, o cümlədən mən də tez-tez bununla əlaqədar həm verilişlərə, saytlara, qəzetlərə verildiyimiz açıqlamalarda təkliflər səsləndiririk. Orta, ali məktəb, dövlət orqanları, özəl sektorun işə başlama və işi bitirmə saatları dəyişilməlidir, həm də şəhərin mərkəzindən torpaq və yolların kiçik olduğu yerlərdən onların köçürülməsi nəzərə alınmalıdır. Bununla bağlı paytaxtda Qış parkı salınıb, köhnə məhəllələr sökülür, əvəzinə yüksək mərtəbəli binalar tikilirdisə, orada yollar da genişləndirilib. Biz bunu 28 may ətrafında görürük. Amma yenə də sıxlıq var. Bir çox ölkələrdə ictimai nəqliyyatdan əlavə şəxsi maşınların nömrələrinə uyğun olaraq tək nömrəli maşınları həftənin tək günləri, cüt nömrəli maşınları cüt günlər şəhərə buraxırlar.

Ümumiyyətlə, Bakının mərkəzinə, İçərişəhər də daxil olmaq şərtilə fərdi avtomobillərin girişi qadağan edilməlidir. Tezliklə daxili yanma mühərriki ilə işləyən ictimai nəqliyyatın və taksilərin hərəkəti də qadağan edilməlidir. Şəhərin mərkəzinə, Tarqovuda biz bunu görürük, "Fəvvarələr meydanı"nda, "Dənizkənarı park"da da görürük ki, elektrobuslara ehtiyac var. Fərdi nəqliyyatı isə, xüsusi dayanacaqlar tikməklə yerləşdirmək olar ki, sıxlıq olmasın. İş qrafiki dəyişilməlidir, ictimai nəqliyyatın elektrikləşdirilməsi, elektrik mühərriki ilə işləyən avtobusların həm Azərbaycanda istehsalına başlanılması lazımdır. Artıq bu, tənzimlənir, Çin müəssisələri ilə danışıqlar aparılır və yaxın gələcəkdə Sumqayıtda baş verəcək. Həm də insanlarda velosiped, piyada gəzmək vərdişini təbliğ etmək lazımdır. Metrodan 100 addımlıq yolu da maşınla getmək istəyirlər".

Aydın Xan Əbilov sözlərinə belə davam edib: "Metronun qrafiki dəyişilməlidir və ona uyğun olaraq da qatarlararası pauza, zaman qısaldılmalıdır. Metro tikintisi sürətlə getməlidir. Yalnız yeraltı metro yox, həm də yerüstü metro ilə şəhərin müxtəlif ucqar yerlərini birləşdirmək olar, hətta Sumqayıta da getmək lazımdır. Bunun üçün potensial da var. Yolların genişləndirilməsi ilə bağlı sürətli işlər aparılmalıdır. Şəhərin mərkəzində Moskvada, digər meqapolislərdə olduğu kimi, yerüstü metronun da tikintisini düşünməliyik. Bəzi təkliflər var ki, tramvaylar olsun. Amma tramvaylar həm texniki cəhətdən köhnə nəqliyyat vasitəsi sayılır, həm də elektrobuslar olan yerdə ehtiyac yoxdur. Sıxlıq və tıxacın qarşısını almaq üçün Azərbaycanın bir çox şəhərlərinə ali məktəblərimizi, dövlətin bəzi 2 və 3-cü dərəcəli qurumlarını köçürmək olar. "Ağıllı şəhər" konsepsiyası ilə qurulan Qarabağın bir çox şəhərlərinə böyük meqapolis funksiyasını vermək və bir çox ali məktəbləri də Qarabağda yerləşdirmək olar. Bununla şəhərin sıxlığını nisbətən azaltmaq olar. Bütün dünyada olduğu kimi daha çox fiziki hərəkətə, gəzintiyə üstünlük vermək lazımdır. Çünki bu, həm də sağlamlıqdır. Bu, məktəblilərin, tələbələrin, gənc nəslin də sağlam böyüməsinə kömək edəcək. İnzibati məsuliyyəti və cərimələnməni artırmaq, şəhər ictimai nəqliyyat mədəniyyətini yüksəltmək, bunlarla bağlı maarifləndirici, faktiki layihələr həyata keçirilməlidir. Yaxın gələcəkdə bunlarla bağlı addımlar atmalıyıq, çünki getdikcə şəhər yüklənir, şəhərdə günün əvvəli və sonunda hərəkət etmək mümkün deyil. Amma hələ ki, optimallaşdırma davam edir. Bizi yaxın gələcəkdə nə gözləyir, texniki tərəqqi bunu göstərəcək".

***Söylü Ağazadə***

## Ölkəmizdə təhsil alan əcnəbi tələbələrin sayı 10 minə çatıb



Azərbaycanda təhsil alan əcnəbi tələbələrin sayı 10 minə çatıb. SİA xəbər verir ki, bu barədə elm və təhsil nazirinin müavini Həsən Həsənli jurnalistlərə açıqlamasında məlumat verib. Onun sözlərinə görə, bu, Azərbaycan təhsili tarixində rekord rəqəmdir: "Son illərdə xarici vətəndaşlar üçün təhsil müəssisələrinə müraciət və yaşayış icazələrinin alınması üçün xeyli iş görülüb".

## Abramoviç ofisianta 5,9 min dollar bəxşiş verib



"Çelsi"nin keçmiş sahibi Roman Abramoviç Türkiyənin elit restoranlarından birində verdiyi bəxşişlə gündəmə gəlib. QOL "SonDakika"ya istinadən xəbər verir ki, rusiyalı milyarder 85 min türk lirəsi (2,9 min dollar) dəyərində sifariş verib və ofisianta 175 min lirə (5,9 min dollar) bəxşiş təqdim edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**